# MƏZLUMLUQ VƏ QƏHRƏMANLIQ

**Qəzzə qəhrəmanlığından hekayələr**

**Müəllif: Hüseyn Zərifmənəş**

بسم الله الرحمن الرحیم

**Kitabın adı:............Məzlumluq və qəhrəmanlıq**
**Müəllif:………..........................Hüseyn Zərifməneş**
**Çap tarixi:....................................................2025**
**Çap növbəsi:............................................Birinci**
**Tiraj:............................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 55-18-77, 500-249,

ISBN 70-54-024518-68

# Giriş

**Şəhidlərinin Rəbbinin və zalımları məhv edən Allahın adı ilə**

***Qəzzə! Nə bilirsən nədir Qəzzə?***

Haqq və batil qarşıdurmasının heyrətamiz meydanı, şeytan və fironun müqəddəs torpaqlara uzanmış istila zəncirlərini qırmaq, bütün zər və zor mərkəzlərinin, qəzəb və ehtiras ağalarının, bütün şeytan dostlarının qoruduğu və təbliğ etdiyi yetmişillik sehri batil etmək üçün ayağa qalxmış əzmkar millətin müqavimət zirvəsidir Qəzzə!

Qəzzə - bəşər ixtiyarının iki yönünün aydın nümayiş səhnəsidir; bir tərəfdə iman, müqavimət və qəhrəmanlıq, digər tərəfdə ehtiras, cinayət və dəlilik!

Qəzzə - tarix boyda bir sərgidir, orada mərsiyədən qəhrəmanlıq yaradan insanın əzəmətini görmək olar. Bu insan bir saniyənin içində hər şeyini itirə bilər, iman, şərəf, ləyaqət və insaniyyətini isə əsla! Bu insan göstərir ki, yüz tonlarla uçqun altında qalıb əzilmək, amma zülm qarşısında baş əyməmək mümkündür.

Müqavimətlə ultra-yüksək texnologiyaya dayanan silahları ələ salmaq, iman sayəsində düşmənin dişinə qədər silahlanmış və daim yenilənən ordusu qarşısında möhkəm dayanıb "Zillət bizdən uzaqdır" demək, hegemon cəbhəyə onminlərlə günahsız qadın və uşağın həyatına bir qran

dəyər vermədiyini, odekolonlu və sivil bir centlmen kimi görünüb, əslində isə heyvandan da yırtıcı və üfunətli olmağın mümkünlüyünü göstərmək olar.

Ən ağır bomba ehtiyatlarını dünyanın ən sıx yaşayış məntəqələrindən birində bitirmək, faciələr törətmək, bir uşağın zəifləməsini, dərisinin sümüyünə yapışmasını, skeletə dönməsini və ölməsini soyuqqanlılıqla izləyib, sonra da: "Ah! Vəziyyət yaxşı deyil!" – deməniz mümkündür.

Qəzzə - Yer kürəsinin modern insanın tənəzzülünü və mömin insanın azadlıqsevərlik və inamının zirvəsini nümayiş etdirən bir zolağıdır.

Qərb liberal-demokratiyasının rüsvaylıq maskasını yerə salan, məzlumluq və iqtidarı birlikdə nümayiş etdirən xalq, ərəb dövlət başçılarından çox anlayan uşaqlar, izzət və şərəf ağacı qurumasın deyə parça-parça olmuş əzizlərini öz əlləri ilə torpağa tapşıran qadınlar və "gözəl dözümlülüyü" təfsir edən mərd kişilərdir Qəzzə!

Əl-Əqsa tufanı göstərdi ki, Hizbullah – Allah dəstəsidir, Yəmən – zülmlə barışmazlığı, vəzifəsini yerinə yetirmək prinsipi, cəsurluğu və azadlıqsevərliyi ilə "möhkəm dağ kimi"[1] olan və Allahdan başqa heç nədən qorxmayan möminlərin simvoludur, İraq müqaviməti - başıuca Əhli-beyt əsgərləri, İslami İran - İslam ümmətinin izzət və şərəf bayraqdarı və Qəzzə - məzlumluq və qəhrəmanlıq meydanıdır!

Qarşınızdakı qısa hekayələrin əksəriyyəti xəbərlərdən, real foto və videomateriallardan yazılmışdır. İslam İnqilabının Böyük Rəhbərinin buyurduğu kimi, ora Qəzzə-

---

[1] Əmirəlmöminin Əli (ə): "Mömin möhkəm dağ kimidir, fırtınalar onu tərpədə bilməz!" Bihar əl-ənvar, c. 39, səh. 351.

İsrail yox, haqq-batil meydanı[1] olduğu üçün, şübhəsiz, Allahın yardımı ilə bu döyüşün son qalibi müqavimət cəbhəsi və Hizbullah olacaq![2]

---

[1] İslam İnqilabının Böyük Rəhbərinin şagirdlərlə görüşdə çıxışından, 2023.
[2] İslam İnqilabının Böyük Rəhbərinin müqəddəs müdafiə və müqavimət fəalları ilə görüşdə çıxışından, 2024.

# 1

Son bir neçə gündə yerlə və binalarla birlikdə onun bədəni də dəfələrlə titrəmiş, dəhşətli partlayış səslərindən sonra bütün vücudunu vahimə bürümüşdür.

Atılan bombalardan çoxlu uşaq öldüyünü eşidib. Təşviş ata-anasının gözlərindən ona keçir. Ürəyi balacadır, qorxur.

Anasından soruşur:

- Ana, biz bombalansaq, bunun ağrısı da olur? Birdən ölürük, yoxsa ağrıdır?

- Narahat olma, ağrısı yoxdur.

Və atası əlavə edir:

- Qorxma, yalnız bir səs gəlir və tamam![1]

# 2

Gözlərini açır. Başının üstündə bir kağıza yazılıb: Əhməd Şəbbat.

Onun ad-soyadıdır. Hər iki ayağında xüsusi hisslər var, onları tərpətmək istəyir. Cəhd edir, amma bacarıb-bacarmadığını bilmir. Ayaqlarının üstündəki ədyalı kənara çəkmək istəyəndə tibb bacısı gəlib deyir:

- Yox; ədyal ayaqlarının üstündə qalmalıdır.

---

[1] "Əl-Cəzirə" kanalının Qəzzə üzrə müxbiri

- Evə getmək istəyirəm. Anamın yanına getmək istəyirəm.

- Olmaz! – tibb bacısı deyir. – Eviniz gecəki bombardmanda dağılıb. İndi gedə bilməzsən, sonra!..

Əhməd qoluna qoşulmuş sistemi dəyişdirən tibb bacısını dinləyə-dinləyə ədyalı bir az kənara çəkir. Aman Allah! İki ayaq yerinə budlarına ağ parça dolayıblar. Qışqırıb ədyalı kənara atır. İki ayağı da kəsilib!

- Ana!.. Ata!.. Ana!..

Səsi bütün şöbəyə yayılır. Tibb bacısı onun əllərini iki əli arasında tutub ağlayır və öz-özünə düşünür: "Mən buna necə deyim ki, təkcə evləri dağılmayıb, təkcə ayaqları kəsilməyib, bu gecə həm də bütün ailə üzvləri şəhid olub!"[1]

## 3

Fələstinli yeniyetmələr qənimət tapıblar. Quru və susuz bir kanalın ətrafında yerə bir-iki torba un tökülüb. Uşaqlar torpağa qarışmış unu yerdən yığırlar. Birinin əlində sellofan torba var, bir qədər unu torpağın üstündən götürüb ona tökür. O birisi ovuclarını unla doldurub köhnə gödəkcəsinin ciblərinə boşaldır. Üçüncünün isə yalnız ovuclarında yer var.

Axşam çörək bişəndə, düzdür, torpaq iyi gəlsə də, ac qarınlar doyur.

---

[1] "Əl-Aləm" telekanalı, işğal olunmuş Fələstin

# 4

Balaca oğlan ağ mələfənin arasındakı şeyi qucağına götürüb atasıyla birgə yol gedir. Bəzən onu qucağına sıxır, bəzən öpür.

Atanın gözləri yaşla doludur.

Öz-özünə zümzümə edir, üzündən qəm-kədər yağır. Bəllidir ki, yasdadır, amma sınmayıb, məğrur görünür.

Diqqətlə baxıb bildim ki, oğlanın qucağına götürdüyü şəhid qardaşının kəfənə bükülmüş cənazəsidir. Atasına deyib ki, qardaşımı özüm aparmaq istəyirəm.

Ata canının parçasını qardaşının gözləri önündə necə torpağa tapşıracağını düşünür.

# 5

Nyu-York Universitetidir. Sinifdə mübahisə qızışıb.

Tələbələr "Əqsa tufanı" barədə danışır, fikir bildirirlər. Bəziləri HƏMAS-ı haqlı bilir, bir qismi isə İsraili.

Tələbələrin biri deyir:

- Məgər israillilərin fələstinlilərin torpaqlarını zəbt etdiklərinə dair şübhə var?! Heç kimin şübhəsi yoxdur ki, Fələstin xalqı didərgin düşüb, onlara zülm olunub.

Başqa bir tələbə onun sözünü kəsib deyir:

- Bu, tarixə aid bir mövzudur. Əsas odur ki, indiki döyüş necə və niyə yaranıb. Bu da məlumdur ki, buna HƏMAS başlayıb.

Müəllim oturub dinləyir.

Bayaqdan səsi çıxmayan qaradərili tələbə Elizabet ayağa qalxıb deyir:

- Bəyəm keçmişi unutmaq və görməzliyə gəlmək olar?! Üstəlik, son illərdə Qəzzə əhalisi yaşamayıb; nə təhlükəsizlik, nə dərman, nə ərzaq...

- Xanım, bu nə sözlərdir danışırsınız?! – deyə Maykl onun sözünü kəsir. – Bəyəm HƏMAS və fələstinlilər insandırlar ki, haqları da olsun?! Günahsız körpələrin başını kəsən adamdır?! Ona rəhm etmək olar?!

Müəllim söhbətə qoşulur:

- Dayan!.. Hissiyyata qapılsınlar deyə doğru-yalanı bilinməyən belə sözlərdən istifadə etməyin.

- Niyə ki, müəllim?! – deyə Maykl etiraz edir. – Mən özüm görmüşəm.

- Həqiqətən, özün görmüsən? – deyə müəllim gülümsəyir.

- Bəli, internetdə görmüşəm.

- Mübahisə etmək istəmirəm, amma sənin gördüyün klipi mən də görmüşəm; montajdır, uydurmadır, - müəllim bunu deyib ayağa qalxır, bir neçə addım gəzişəndən sonra əlavə edir: - Fələstinli və israillilərin siyasi və etiqadi bəhsləri bir yana, amma fələstinlilərin uşaqların başlarını kəsdiklərinə dair təbliğat həqiqət deyil. Öz şüurumuza hörmət edək.

Nyu-York Universitetinin 48 yaşlı müəllimi tələbələrin diskussiyanı davam etdirmələrini istəyir.

Ertəsi gün səhər Nyu-York Universitetinin sözçüsü belə bir bildiriş yayır: “Universitetin müəllimlərindən biri antisemitizm səbəbindən işdən çıxarılıb, bundan sonra tədris etmək haqqına sahib deyil!”

# 6

Sionist rejimin ordusunun təyyarələri uçur. Hamı sığınacaqlara, yox-yox, onları qoruyacaq hər hansı bir şeyin altına sığınıb.

Cəmil bacadan baxır; bomba yerinə konserv tökürlər. Böyük qardaşı anasına deyir:

- Şübhəsiz ki, humanizm deyil. Yəqin, insan haqları təşkilatları bunları məcbur edib.

Cəmil anasının əlini buraxıb digər uşaqlarla birlikdə konservlərə doğru qaçır. Əgər götürə bilsə, bu axşam yaxşı yemək yeyəcək. Görəsən nədir?

Öz-özünə düşündü ki, nə olsa, hətta ət və balıq olmayıb lobya da olsa, önəmli deyil.

Qonşularının oğlu Həsən uzun boy və ayaqlarına görə ondan azacıq tez çatdı. Lakin Cəmil də binəsib olmadı. İki konserv qutusu çox dəyərli idi.

Sevindiyindən gözləyə bilmirdi. İçindəkini görmək üçün ağzını açmaq istəyəndə birdən partlayış səsi gəldi.

Anası ilə qardaşı heyrət içində baxırdılar; Cəmilin əl və gözləri qana boyanmışdı.

Konserv qutularında partlayıcı maddə varmış.[1]

---

[1] “France 24” kanalı

# 7

Qızı yaralanmışdı. Özü təsadüfən evdə, onun başı üstəydi. Qəlpə uşağın ayağını tamam aparmışdı. Budunun yuxarı hissəsini bintlə bərk bağladı. Zeynəb zarıyırdı. Üzünün rəngi qaçmışdı.

Ev mühasirədə olduğuna görə onu bayıra çıxara bilmirdi. Qanaxmadan qızını itirəcəyini güman edirdi.

Zeynəb gözlərini açdı.

- Ata! Ata!

Qızını bütün vücudu ilə sevirdi. O, bütün həyatı idi; həyatının bütün sevgi və gözəlliyi.

- Can, ömrüm-günüm, - deyə atası cavab verdi, - sən gərək sağ qalasan... Yaxşı olacaqsan, döz.

Ağrısının dözülməz olduğunu bilirdi.

Zeynəb yenə huşunu itirdi.

Otağın bir küncündə oturub baş və sinəsinə vuran həyat yoldaşını çağırıb:

- Bax; gərək kömək edəsən, gərək dözəsən... Əgər qızımızın... – dedi və daha özünü saxlaya bilməyib ağlaya-ağlaya əlavə etdi: - Əgər Zeynəbimizin yaşamasını istəyirsənsə, onun ayağını kəsməliyəm. Kömək edə bilərsən?

Cavab gəlməyəndə isə qışqırmağa başladı:

- Dedim ki, kömək edə bilərsən?

Göz yaşları dayanmayan qadın dedi:

- Yaxşı, yaxşı! Nə desən, edərəm... təki yaşasın...

Həkim başladı. Ora əməliyyat otağı deyildi, lazımi alət və avadanlıqlar yoxdu və bu dəfə əməliyyat çarpayısına uzanmış şəxs öz qızı idi.

Dolçanı su ilə doldurdu. Yerdən bir mələfə götürüb bir neçə parçaya ayırdı. Mətbəxdən və otaqlardan bir neçə alət də gətirib cərrahiyyə əməliyyatı üçün seçdiyi çarpayının yanına qoydu. Hər şey hazır idi.

Balaca mələfə parçasını Zeynəbin ağzına, dişlərinin arasına qoydu. Anası Zeynəbin qollarını tutmalı idi. Ona dedi:

- Baxma! Ya gözlərini yum, ya da o tərəfə bax. Zikr de və dediklərimi elə.

Həkim qızının ayağını heç bir narkoz və ağrıkəsici olmadan kəsdi, yaranı yumaq və dezinfeksiya etmək üçün yalnız sudan istifadə etdi.

İşini bitirib yerdə oturanda isə birdən başının hər iki tərəfini tutdu. Bütün vücudunu dəhşət bürüdü.

Yadına düşdü.

Həkim dostlarından biri bir neçə gün əvvəl narkoz vermədən öz oğlunun ayağını kəsmiş və uşaq ölmüşdü.

# 8

Oğlanın üç, ya da dörd yaşı var.

Saçı pırtlaşıq, üzü tozludur. Qolu sarınmışdır, gözlərindən qorxu yağır. Sanki dünyanın bütün qəm-qüssəsi o gözlərdə nümayiş etdirilir.

Küçənin kənarındakı bördürün üstündə oturub.

Nə edəcəyini, hara gedəcəyini, nə deyəcəyini və kimə deyəcəyini bilmir.

Hətta ağlaya da bilmir.
Əllərini yuxarı qaldırıb həzin səslə sızlayır:
- Ya Rəbb! Ya Rəbb! Ya Rəbb! Ya Rəbb!..

# 9

Livanlı gənc qız anasının yanında dayanmışdır. O, İsrail rejiminin terrorçu cinayəti zamanı bir gözünü itirmişdir. Bir əli ilə çadrasından tutub, üzündə təbəssüm var.

Anası danışmağa başlayır:

- Şükür Allaha, Qəzzənin yanındayıq. Biz son nəfəsimizə qədər Qəzzə ilə qalacaq, heç vaxt ondan əl üzməyəcəyik! Ey xalq! Ey dünya! Bunu edən zalımlar təkcə mənə zülm etməyiblər. Onlar bəşəriyyətin düşmənləridir. Qəzzə, əgər hamımız gözlərimizdən məhrum edilsək də, biz səni tək qoymayacağıq!

Qız anasına baxır. Anasının ağzından çıxanlar onun sözləridir.

- Ey dünya əhalisi! Oyanın və zalıma qarşı çıxın!

Qızının ovulmuş gözünə baxıb sözünə davam edir:

- Gözlərimizi itirsək də, bəsirətimizlə görəcəyik!

Əziz qızının başından öpüb deyir:

- Allaha şükür, qızım, bütün nemətlərinə görə Allaha şükür! Sən mənim başımın tacısan, qızım!

# 10

Qadın hamiləydi. İordan çayının qərb sahilində yerləşən Lod şəhərində yaşayırdı. İki övladı ilə birlikdə küçəyə çıxmışdı, bir qohumugilə gedirdi. Qəsəbə sakini olan bir sionist yolun ortasında onun qarşısında dayanıb söyməyə başladı.

Qadın heç nə demədi, o vəhşinin əlindən tez xilas olmaq üçün uşaqlarının əlindən tutub ardınca dartmağa başladı. Onun gözlərində və iki övladının üzündə böyük qorxunu görmək olurdu.

Sionist kişi hələ də onu söyürdü.

- Sən fələstinlisən və...

- Məgər fələstinli olmaq cinayətdir? – deyə qadın cavab verdi. – Mən sizə nəsə demişəm?! Nəsə eləmişəm?!

Kişi aman verməyib paltarının altından çıxardığı bıçaqla qadının baş, sinə və böyrünə zərbə endirməyə başladı; bir, iki, üç zərbə.

Fələstinli qadın qanına qəltan oldu.

Çabalayır, başını qaldırır.

Yenə bıçaq zərbələri, bir-birinin ardınca.

Uşaqlar qışqırır, hərəsi bir tərəfə qaçır. Bir neçə yolçu tələsik ötüb-keçir.

Küçənin daş döşəməsi qızarır. Qadının boğazından sızıltı səsi gəlir, az sonra isə daha nəfəs almır.

## 11

Kameralar xəbər hazırlamaq üçün videoçəkilişlə məşğul idi. Yetmiş doqquz yaşlı Fələstin vətəndaşı Bəşir Cəxxi axsaya-axsaya Qəzzə zolağının cənubuna doğru gedirdi. İsrail hərbçiləri çiyni silahlı və qətiyyətli, amma sakit şəkildə ona yol göstərirdilər. Onlar qaçqınların Qəzzə zolağının cənubuna getmələri üçün təhlükəsiz koridorun olduğuna dair təbliğat aparmaq məqsədilə ondan istifadə edirdilər.

Ona demişdilər ki, cənuba getsə, həyatını xilas edəcək. Qoca gözlərinə inanmasa da, qayğısına qaldıqları üçün onlara minnətdar idi.

Xəbər geniş şəkildə işıqlandırıldı.

Bir neçə gündən sonra gənc bir jurnalist hər yerdə Bəşiri axtaran kişiyə gizlicə çəkdiyi şəkli göstərdi.

Qoca yolunun davamında güllə ilə vurulub şəhid edilmişdi.

## 12

Snayperlər xəstəxananı dövrəyə alıb pusqu qurmuşlar.

Onların biri bir tibb bacısını Körpələrə xüsusi qulluq şöbəsinə girərkən görür.

Yaxşı hədəfdir!

Düz ürəyini nişan alır.

Və atəş!..[1]

# 13

Balaca qız yad bir cavanın qolları üstündə vahimə içində və heyrətlə ətrafa baxırdı.

Ondan tüstü iyi gəlirdi.

Qorxu və iztirabdan az qala gözləri hədəqəsindən çıxacaqdı.

Ağlaya, hətta qışqıra da bilmirdi.

Heç nədən xəbəri yox idi, yalnız cavanın qışqırtısını eşidirdi:

- Sağdır! Sağdır!

Onun niyə belə etdiyini anlaya bilmirdi.

# 14

Hər yer qaranlıqdı; zülmət qaranlıq.

Qarışıq səslər gəlirdi. Əl-ayaqlarını tərpədə bilmirdi. Ağzı qurumuşdu. Qan qoxusu duyurdu. Üz-başına torpaq tökülürdü. Görünür, uçqunu kənara çəkirdilər. Zarımaq üçün də dili ağzında tərpənmirdi. Yarımaçıq gözlərinin üstünə bir daş parçası dəydi. Bütün vücudu ilə çabalayıb "Mən buradayam" demək istəyirdi; amma bacarmadı.

---

[1] Norveçli məşhur həkim, humanist fəal və siyasətçi doktor Mads Fredrik Gilbertin Şəfa xəstəxanasından reportajı

Diqqətlə dinlədi. Bir nəfər deyirdi:

- Xeyri yoxdur. Bu dirək və betonları tərpətmək olmur. Ümid yoxdur. Güman ki, altdakıların hamısı şəhid olub. Gedək qarşıdakı binaya.

Hər yer qaranlıqdı; zülmət qaranlıq...

# 15

Deyvid öz-özünə düşündü:

“Niyə mənə bir qəhrəman və əfsanə kimi baxmamalıdırlar?

Niyə bizim böyük işlərimizi görmürlər?

Niyə amerikalı və avropalı qorxaqlar mənim və mənim kimilərin cəsarətini görmürlər?”

Bir qədər fikirləşdi.

Öz uğurunu hamıya göstərmək, digərlərini də sevincinə şərik etmək istəyirdi. Sosial şəbəkələr bu böyük işi reklam edə bilərdi.

Mobil telefonunu götürüb İnstaqram hesabını açdı, telefonun qalereyasını axtarmağa başladı. Bir neçə şəkil arasında qalmışdı. Nəhayət, seçimini etdi.

İsrail istehsalı olan snayper tüfəngi ilə atəş açdığı yerdə çəkdirdiyi şəkli yükləyib altından yazdı: “Mən İsrail snayperi Deyvid Ovadyayam. Mən bir gündə 13 fələstinli uşağı öldürmüşəm”.

Ən aşağıdan da bunu əlavə etdi: “Müsəlmanlar! Gedin cəhənnəmə!”

# 16

İsrail snayperi IWI DAN tüfəngini bir binanın damına yerləşdirib qürurla ona baxır.

Bu tüfənglərdə tam ölçüdə pikatin relsləri var, sabit və hərəkətli hədəfləri dəqiq nişan almaq üçün üstünə optik cihaz yerləşdirmək olur.

Tətik çəkiləndən sonra açılan gülldə çox yüksək enerji olur. Heç bir canlı onun əlindən salamat qurtula bilmir.

- İndi, - deyib atəş açır.

Nasir xəstəxanasının yanında ələ keçən cavan yerə diyirlənir.

Xəstəxananın həkimi Əmirə Əsuli içəridən bu hadisəyə şahid olur. Bir gəncin güllə ilə vurulduğunu və qanının axdığını uzaqdan görüb nəsə etməli olduğunu düşünür.

Ürəyi dözmür.

Yanındakına deyir:

- Gedib kömək edək?

- Bilmirəm, doktor, çox təhlükəlidir.

Güllə ilə vurula bilər. Özünün və vurulmuş cavanın – hər ikisinin öldürülməsi mümkündür. Digər yaralıların ona ehtiyacı var. Yaralı cavanı xilas etməyə heç bir şans yoxdur.

Çaşqınlıq, vəsvəsə, tərəddüd, bəhanə...

Birdən qərarını verir.

Doktor qızışmaq üçün büründüyü ədyalı yanında dayanmış adama verir.

Bayıra çıxır.

- Doktor, çox təhlükəlidir! Xanım, ehtiyatlı olun!

Bu, yanındakının səsidir.

Doktor əyilə-əyilə küçənin o tərəfinə qaçır. Ömründə heç vaxt belə sürətlə qaçmayıb.

Snayper kiminsə küçəyə çıxmağa cürət edəcəyini düşünmürdü. Özünə gəlib nişan alınca xanım həkim iki nəfərin köməyi ilə yaralını xəstəxanaya aparır.[1]

# 17

Xəbər agentlikləri yazır:

Misir İsraili qınadı.

İordaniya İsraili qınadı.

Səudiyyə Ərəbistanı İsraili qınadı.

Küveyt İsraili qınadı.

Türkiyə İsraili qınadı.

Ərəb liqası İsraili qınadı.

Birləşmiş Millətlər Təşkilatı İsraili qınadı.

Amma...

İsrail təyyarələri bombalamağa davam edir.

Uşaq cəsədləri küçələrdə çürüyür.

Yanacaq və ərzaq dolu yük maşınları müsəlman ölkələrindən işğal olunmuş Fələstinin sionist sakinlərinə yardım üçün hərəkət edir.

---

[1] www.hamshahrionline.ir

# 18

Əbu Amirin evindən gələn əl çalmaq və şənlik səsləri küçəni bürümüşdü.

Əbu Amirin kiçik oğlu Məhəmmədin Əbu Əhmədin qızı Hənanə ilə toyu idi. Anamla mən də dəvət olunmuşduq.

Sionist helikopterlərinin səsi gəlirdi.

Sionist rejimi hər gün Qəzzəni bombalayırdı. Bir neçə min qadın və uşaq şəhid olmuşdu.

Bu matəm günlərində toya getmək istəmirdim. Ancaq anam dedi ki, getməliyik; mən də getdim.

İçəri girəndə bəylə atası bizi qarşıladılar.

Məhəmməd daha yaraşıqlı və kişi kimi görünürdü. Onu təbrik etdim.

Əbu Amir üzünü anama tutub dedi:

- Bağışlayın, hamımız əzalıyıq, amma Qəzzənin yaşadığını göstərməliyik. Düşmənə deməliyik ki, bizdə həyat davam edir.

Anam təsdiq əlaməti olaraq başını yelləyib təbrik etdi.

Həmin axşam neft lampalarının zəif işığında, Qəzzənin aydın qaranlığında təmtəraqlı toy keçdi. Gedəndə Məhəmmədi öpüb qulağına dedim:

- Bəs niyə tələsdin? Gözləyərdin müharibə bitsin, atəşkəs olsun...

- Müharibədən sonraya kim ölə, kim qala! – deyə Məhəmməd gülümsədi.

- Allah mübarək eləsin! – mən də gülüb dedim.

Ertəsi gün axşam mənimçün ağır bir gecə oldu. Kaş o gecə gəlməyəydi! Kaş o toya getməyəydim!

Dostlarımla birgə Əbu Amirgilə qədər birnəfəsə qaçdıq. Bəylə gəlinin evi yerlə yeksan olmuşdu.

# 19

Səkkiz körpə idilər.

Ventilyatorların[1] elektrik enerjisi kəsiləndə...

Nəfəslər...

# 20

İsraillilərin cinayətləri həyasızca və qəddarca davam edir. Minlərlə uşaq, qadın, kişi, qoca və cavan qanına qəltan edilib.

Digər insanlar kimi onun da atəşkəsə zəif ümidi vardı. Eşitmişdi ki, Təhlükəsizlik Şurasında qərar qəbul ediləcək. Lakin indi öyrənirdi ki, ABŞ atəşkəs qətnaməsinə növbəti dəfə veto qoyub. Bundan əlavə, konqres İsrailə modern silahların verilməsini təsdiqləyib.

Avropalılar heç, hətta ərəb liderlər də susurlar. Bəzi müsəlman ölkələrin sionist rejimə yardımları davam edir. Digər dünya dövlətləri də yalnız baxırlar.

---

[1] Tənəffüs problemi ilə doğulmuş körpələrin ağciyərinə süni oksigen ötürən aparatlar

Yadına düşdü ki, bir neçə il öncə Livan Hizbullahının uşaqlarına qonaq olanda onlar Varis ziyarətnaməsini oxuyur, Hüseyn ibn Əlinin məzlumluğundan və Bəni-Üməyyənin cinayətlərindən danışırdılar.

Bu hissələr çox ürəyinə yatmışdı:

"Sizi öldürən dəstəyə Allah lənət eləsin! Sizə zülm edən dəstəyə Allah lənət eləsin! Bu cinayətləri eşidib razı olan dəstəyə Allah lənət eləsin!"

# 21

İsrail əsgəri knessetdə öz vəziyyətini məruzə edir:

"İndi başımın üstündən qumbaraatan mərmilərinin keçdiyini hiss edirəm.

Özümü buldozerin içində görür, meyit iyi duyuram.

Yuxuda qorxudan özümü isladıram. Bir şüşə araq içməyincə yata bilmirəm.

Öz əllərimlə yaralıları toplayıram.

Siz hardasınız?

Biz kölgələrlə vuruşuruq.

Mən qorxuram, biz qorxuruq, amma onlar qorxmurlar.

Dəli olmaq üzrəyəm. Dəli olmuşam. Netanyahu hardadır? Bura əlillərlə doludur. Onlarla əlil öz ümidinə buraxılıb. Məni öz ümidimə buraxıblar".[1]

[1] İsrail əsgərinin knessetdə məruzəsi

# 22

Dağıntıların üstündə oturub. Bilmirəm indiyə qədər neçə əzizinin yasını saxlayıb. Üzündən oxuyuram ki, heç nəyi qalmayıb; nə ailə, nə ev, nə əkin sahəsi...

Qarşısında otururam. O qədər kövrəlmişəm ki, danışa bilmirəm. Dilim topuq vura-vura deyirəm:

- Sən niyə qalmısan?! Heç nəyin qalmayıb axı!

- Yox, cavan, hələ əliboş deyiləm. Allahım var, bir də ümidim. Xüzaə kəndindənəm.

İnşallah, sağ qalacağıq!

Evlərimizi uçursalar da, onların yerinə onlarla yeni ev tikəcəyik, inşallah!

# 23

Balaca oğlu ilə yoldan keçən 40-50 yaşlı bir qadın bizi görür, amma acıma hissimizə məhəl qoymur.

Soruşuram:

- Müharibə gedir, hər gün güclü bombardmanlar altındasınız; qorxmursunuz?

Başını dik tutub cavab verir:

- Müharibəyə və onun əzablarına baxmayaraq, biz heç nədən qorxmuruq. Su və işıqlarımızı kəsiblər. Xəstəxanalara gedib su və işıqlarından istifadə edirik. Yox, biz müharibədən qorxmuruq!

Oğlu söhbətə qoşulur:
- Biz sığınacaq düşərgəsində uşaqlarla oynayırıq. Biz yaşamağı sevirik.

## 24

Uşaqları Beynəlxalq Müdafiə Günüdür.
Uşaqlar qırıcı və raketlərin evlərinə hücumundan qorunmaq üçün xüsusi düşərgəyə sığınıblar. Onlar acdırlar, qarınlarını doyurmaq üçün bir tikə çörək axtarırlar. Oyun yoldaşlarının bir qismi şəhid olub, bir qismi yaralanıb.
- Dünyaya bir sözünüz varmı? – deyə soruşuram.
Biri deyir:
- Biz yaşamaq istəyirik!
İkincisi dillənir:
- Biz də yaşamağı sevirik!
- Sağ qalmağa bir yol tapdığımız müddətcə biz də yaşamağı sevirik! – deyə üçüncü uşaq cavab verir.

## 25

Televiziya xəbərlərində bildirdilər ki, HƏMAS üzvləri müdafiəsiz mülki israilliləri güllələyib.
İsrailli qadın hərbçi üzünü ərinə tutub:
- Bilmirəm neçə nəfər idilər, - deyir və sonra əlavə edir:
- Biz darvazanı qırıb qəsəbəyə girdik və komandirin göstərdiyi səmtə getdik. O, bir yeri göstərib mənə dedi ki,

atəş aç. Ona dedim ki, birdən öz vətəndaşlarımız orada olarlar. Dedi ki, bilmirəm, sən atəş aç. Mən atəş açmaq istəmirdim, çünki qəsəbədə yaşayan israillilərə dəyə bilərdi. Lakin axırda atəş açmaq məcburiyyətində qaldım.

# 26

Uşaqlar bir torpaq komasının yanında dayanıblar. Evləri dağılıb. Mənə arzularından danışırlar:

- Mənim arzum yaxşı doktor olmaqdır.

- Mən müəllim olmaq istəyirəm.

- Mən mühəndis olub şəhərimi tikmək istəyirəm.

- Mən bütün dünya əhalisi kimi azad torpaqlarda yaşamaqdan başqa bir şey istəmirəm; televizorda şən gördüyüm uşaqlar kimi gəzim, oynayım, səyahət edim.

- Arzum budur ki, universitetdə oxuyum. Arzum budur ki, tabletim olsun və sosial şəbəkələrdə fəaliyyət göstərim.

- Kriştiano Ronaldonun maşınından məndə də olsun istəyirəm.

- Kaş bomba səsləri bitsin! Mən gecələr çox qorxuram, tir-tir əsirəm, səhərə qədər yata bilmirəm. İstəyirəm ki, daha qorxmayım. Bomba səsi gələndə ürəyim çox bərk döyünür. Atamın şəhadətindən sonra qardaşlarımdan birini, ya da anamı itirəcəyimdən qorxuram. Mən uşağam, uşaq kimi yaşamaq istəyirəm.

- Yenə qaçqın olmaq istəmirəm. Dostlarım və əmim oğlanları ilə oynadığım məhəlləyə qayıtmaq, onlarla oynamaq istəyirəm. Çadırda yaşamaq istəmirəm. Hava çox soyuqdur, yağış yağır. Ümidvaram ki, bütün Qəzzədə güllə və raket səsləri sussun, sülh olsun.

# 27

“Məni təhqir elədilər. Əgər bu qədər təhqir olunacağımı bilsəydim, vallah, yüz güllə də atsaydılar, onlara təslim olmazdım. Vallah, yüz güllə də atsaydılar, təslim olmazdım.

Məgər yetmiş beş yaşda bu qədər işgəncəyə dözmək olar?! Məndən nə gözləyirsiniz?! Məni döydülər. Ayaqlarım, belim və qollarım bərk yaralanıb, əllərim şişib. Bir işgəncə qurtarır, o biri başlayırdı. Məni təhqir elədilər. Məni it kimi oyan-buyana dartırdılar.

Vallah, mən işgəncələrindən öldüm.

Deyirdilər ki, sən HƏMAS üzvüsən, gərək onları söyəsən; sən HƏMAS-ı sevirsən.

Dedim ki, mənim HƏMAS-la nə əlaqəm; mən yaşlı bir qocayam.

Bizi yerə yıxıb itləri canımıza saldılar. Əsla asan deyildi, əsla! Ölüm mənə o vəziyyətdən daha xoş idi. Vallah, bu təhqirlərə dözə bilmirəm. Razıyam ki, mənə hətta yüz güllə dəysin və mən dayanmadan qaçım, amma heysiyyətim belə tapdanmasın”.

# 28

Uşaqlar dairəvi şəkildə dayanırlar. Biri irəli getməyə çalışır. Qollarını çırmayıblar. Bir neçə nəfər qələm axtarır. Qollarına nəsə yazırlar.

Yaxınlaşır, gülüb deyirəm:

- Saat çəkirsiz? Biz uşaq olanda biləyimizin üstünə saat çəkir, ya da çəkdirirdik.

Tahir gülüb deyir:

- Saat deyil, kimlikdir.

Uşaqların arasından keçib baxıram: "Əmin ibn Əbu Məhəmməd; Abdullah Nəqib; İbn Əbu Baqir; Məryəm bint Əbu Məhəmməd".

Oyun və əyləncə deyil. Başa düşürəm ki, itkin düşmək istəmirlər.

- Bu, analarımızın fikridir, - Tahir deyir. – Deyirlər ki, ömür Allahın əlindədir, amma əgər nəsə olsa, tanınmaq lazımdır.

Az sonra gülüb əlavə edir:

- Mən bilirəm bunu niyə deyirlər. Bombardmanlarda şəhid olanların bir çoxunun kimliyini təyin edə bilməyiblər.

## 29

Ad: Məhəmməd
Yaş: Üçaylıq
Çəki: 2 kq 100 q
Boy: 48 sm

***

Ad: MK 84 bombası
Çəki: 910 kq
Partlayış gücü: Sionist rejimin ən böyük və ən güclü bombası olub düşdüyü yerdə 15,2 metr enində və 11 metr dərinliyində bir çala aça bilir. 380 mm metaldan keçə bilən bu bombanın dağıdıcı diametri 336 metrdir.

***

Ürəyim sıxılır, dəhşətə gəlirəm. İndi bilirəm ki, niyə İmam Səccad (ə) tez-tez soruşurmuş: "Hərmələnin axırı nə oldu?"

## 30

Müxbirlər reportaj hazırlayırlar.

Dağıntıların miqdarı təxmin edilən səviyyəni aşıb.

Hündür binalar başlarını yerə qoyub səcdə edirlər. Hər yanı tüstü, qan, uçqun, yaralıların yanıqlı iniltisi və uşaqlarının cəsədlərini qucaqlarına götürmüş anaların ağı səsləri bürüyüb.

“Allahu əkbər” səsi ucalır, hay-küy düşür. Bir yeniyetməni uçqun altından çıxarmışlar. Yaşayır, amma üzü yaralıdır.

Qolu sallanır.

Peşəsi yardım etmək olanlar ona kömək edirlər.

Yaralı yeniyetmə qələbə əlaməti olaraq sağ əlinin barmaqlarını yuxarı qaldırır. Jurnalistlər bunu görürlər. Fotoaparatların işıqları ətrafı işıqlandırır.

Xatırlayıram ki, müqəddəs müdafiə zamanı, Xeybər əməliyyatında bir jurnalist güclü atəş altında barmaqları ilə qələbə işarəsi verən bir könüllünün şəklini dərc edib altından yazmışdı:

“Bunlar ölümə gülümsəyirlər!”

# 31

Vüsal yaralıdır. Ağrısı dözülməz həddədir. Altıyaşlı uşağı Nurun qanlı üzünü öpüb qəhər içində deyir:

- O, mənim əlimi tutmuşdu. O, mənim əlimi tutmuşdu.

Uşağının əlini tutub qışqırır:

- Baxın, belə! Baxın, o, mənim əlimi tutmuşdu. Mən ona sendviç hazırlamaq istəyirdim.

Mən sendviçi hazırladım, amma o yeyə bilmədi. O yeyə bilmədi, yeyə bilmədi.

O indi cənnətdədir. Mənim Nurum indi cənnətdədir. İlahi! Necə dözəcəyəm? İlahi! Mənim Nurum, mənim əziz Nurum indi Sənin yanındadır.

İlahi! Bu müsibətə dözmək üçün mənə güc ver! Ürəyimin boşaldığını hiss edirəm. Mən heç ağlaya da bilmirəm!

Doğrudan da, ağlamaq istəyirəm, amma gözlərimdən yaş gəlmir.

Mən niyə ağlaya bilmirəm? Niyə? Niyə?

Ay göz yaşları, Allah xətrinə, mənə rəhm edin!

Mən balaca oğlum üçün ağlamaq istəyirəm![1]

# 32

Ona deyiblər ki, bütün bölgə İsrailin gözətçi, kamera, peyk və helikopterlərə quraşdırılmış cihazlarının müşahidəsi altındadır.

Təlim zamanı ona deyiblər ki, başını səngərdən çıxarsa, atəş açıb yenə səngərə girmək üçün təxminən 10-15 saniyə vaxtı olacaq; geciksə, düşmən tərəfindən vurulacaq.

Bilir ki, belə az zamanda bu iş mümkün deyil.

Dodaqaltı oxuyur:

"Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin can və mallarını cənnət müqabilində satın almışdır".[2]

Səngərdən çıxır. Onun qəhrəmanlığını görmək üçün sıra-sıra düzülüb meydana baxan mələkləri görür.

---

[1] CNN kanalının videoreportajı

[2] Tövbə, 111

# 33

Üçyaşlı Cudi on altı gündür hətta bir kəlmə də danışmayıb. O yemir, içmir, yalnız baxır.

Hələ şokdadır.

Həkimlər deyirlər ki, başında bir qəlpə var. Onun bir də yeriyib-yeriməyəcəyini bilmirlər.

Xəstəxananın koridorunda yerdə oturmuş atası deyir:

- Bu uşaqlar nə günah ediblər?! Sionistlər ancaq Fələstin xalqını hədəf seçir, uşaqları öldürürlər. Ona görə ki, biz fələstinliyik. Onlara görə, biz insan deyilik.

# 34

Arva anasını istəyir.

Onu çağırır.

Bədəni yaralıdır.

Nə baş verdiyini bilməyəcək qədər balacadır.

Onun anası, bacısı və qardaşı vardı, hamısı şəhid oldu.

O, artıq təkdir.

Faciənin miqyasını dərk etmir.

Jurnalistlərin kameralarına baxır, gülümsəyib yaralarını göstərir.[1]

---

[1] CNN kanalının reportajı

# 35

Dərin yalnız ağlamaq üçün oyanır.

O, yeddiyaşlı qardaşı Kənanla bir otaqdadır.

Hava hücumundan salamat qurtulan yalnız onlardır.

Ana, ata və çoxlu qohumları şəhid olublar.

Kənan bu günlərdə heyrət içindədir. Bəzən uzun müddət bir nöqtəyə baxır, bəzən rəngi qaçmış üzünün dərisi yığılır, əlləri ilə üzünü tutub sıxır.

- Mən ana və atamla danışmaq istəyirəm, - o, tez-tez deyir.

Dərin isə yalnız ağlamaq üçün yuxudan oyanır.[1]

# 36

Uçurulmuş Fələstin evlərinin dağıntıları üstündə gəzən ac pişiklərə yemək verirdi. Yorğunluq, yuxusuzluq və aclığını gözlərindən bilmək olurdu.

- Bir-iki günə özün də yeməyə bir şey tapmaya bilərsən ha, - gülərək dedim.

Mənə baxıb cavab verdi:

- Dünən balaca bir uşaq gördüm, bir stəkan südü bir pişiklə paylaşırdı. Bunların da yaşamaq haqqı var. Bu

---

[1] CNN kanalının reportajı

heyvanlar da yaşamalıdır. Bunlar da Amerika və sionizmin cinayətinin qurbanıdır.

Bunu deyir, amma sabah özünün yaşamaq haqqının alınacağını bilmirdi.

Onun kəfəninə belə yazmışdılar:

"Müntəsir əl-Səvvaf, fələstinli jurnalist, "Anadolu" agentliyinin Qəzzədə operatoru".

# 37

Əlli üç yaşı var. Cavanlıqda birinci intifazədə iştirak etdiyinə görə yeddi il sionist rejimin həbsxanalarında qalmışdır.

O, xarici bir ölkədə tibb təhsili almaq istəyirdi, amma sionist rejimin yaratdığı maneələrə görə alınmadı və nəhayət, jurnalist peşəsini seçdi.

Vail əl-Dəhduh jurnalist kimi Fələstinin məzlumluğunu işıqlandırır. Onun, çoxlu fələstinlilər kimi, sionist rejim ordusunun məcburiyyəti nəticəsində Qəzzənin şimalını tərk edib Nüseyrat qaçqın düşərgəsinə yerləşmiş ailəsi bir müddət öncə hava hücumuna məruz qaldı.

Bu hücumda Vailin 44 yaşlı həyat yoldaşı, 7 və 15 yaşlı iki övladı və ikiaylıq nəvəsi də daxil olmaqla səkkiz ailə üzvü şəhid oldu.

Camaatın köməyi ilə onları tapıb kəfənlədi və torpağa tapşırdı.

Qonşularının biri deyirdi ki, Vaili məhv etdilər, elə güclü kişi və aktiv jurnalist artıq bitmişdir.

Lakin Vail əzizlərinin dəfnində iştirak edəndən sonra düşündü ki, xalqının məzlumluğunun carçısı olmalıdır:

“Media və ictimai rəy cəbhəsində vuruşmalıyam. Əgər mənim kimilər səhnəyə çıxmasalar, şəhidlərin qanı uçqunların altında qalar”.

Ayağa qalxıb iş yerinə yollandı.

Agentliyin ona təəccüblə baxan işçilərinə dedi:

“Vəzifəm tez bir zamanda işə dönməkdir”.

O gündən çox ötməyib. İndi isə ona başqa bir qara xəbər gətiriblər.

Oğlu Həmzə və onun iş yoldaşı Mustafa Səriya reportaj hazırladıqları yerdə sionist rejimin raket hücumlarından şəhadətə qovuşmuşdur.

Daha bir müsibət...

Daha bir ayrılıq...

Ürəyi ağrıyla doludur, amma təkcə əzizlərinin şəhadətindən ötrü yox...

Möhkəm və inamla başını dik tutdu:

- Onlar iki dəfə öldürülürlər; bir dəfə bomba ilə, bir dəfə də Qəzzə əhalisinə qarşı soyqırıma xarici sükut və işbirliyi ilə.[1]

# 38

Sionist rejim aciz qalmışdır.

Amerikanın hədsiz-hüdudsuz dəstəklərinə, silaha, pula və İsrail ordusunun misilsiz cinayətlərinə baxmayaraq, HƏMAS hələ də yaşayır. Qəzzə əhalisi özünü qalib hiss edir.

---

[1] ABŞ-nın NBC xəbər kanalı

Qeyd dəftərimə yazıram:

"Mən hər gecə və gündüz burada möcüzə görürəm. Bu xalqın bu qədər müsibətlə, bu qədər əzabla necə müqavimət göstərdiyini, hələ də necə ayaqda qaldığını anlamıram".

Kiminsə başım üstə dayandığını hiss edirəm. Baxıb dostum Həbibi görürəm.

Yazımı oxuyub deyir ki, bu möcüzənin sirrini düşmənin dilindən eşit.

- Oxuyummu? – deyir və oxumağa başlayır: - Əgər bir HƏMAS üzvünün bir qolu və bir ayağı kəsilsə, o biri əlində də cəmi iki barmağı qalsa, tək ayağı üstə dayanıb qələbə əlaməti olaraq həmin iki barmağını yuxarı qaldırar. Niyə? – Çünki övladları və nəvələri yolunu davam etdirəcəklər; çünki sağ qalmağı bacarmışdır. Bu, qələbə görüntüsüdür. Biz başa düşməliyik ki, bu, fərqli bir düşüncə və meyardır!

Həbib oxumağı saxlayıb deyir:

- İndi bu hissəyə qulaq as. Bu, sionist rejimin bir universitet müəlliminin fələstinlilərin müqavimət sirrinə dair şərhidir:

"Quranın bir ayəsində deyilir ki, Allah uzunmüddətli əzaba dözümü olanlarladır. Anlamağa çalışın: "səbr". Bizim ibrani dilində belə bir söz yoxdur. "Səbr" o zamandır ki, HƏMAS üzvlərindən biri iki-üç ay tuneldə qalır, gün işığı görmür, çox az yeyir, sonra Kalaşnikovla bayıra çıxıb bir yəhudini öldürür. Niyə? – Çünki onun dözüm qabiliyyəti var və bu, mən sionist üçün başadüşülən deyil".[1]

---

[1] Sionist rejimin universitet müəllimi və keçmiş təhlükəsizlik məmuru Mordexay Kidar

Həbibə gülümsəyib öz-özümə oxuyuram: “Həqiqətən, Allah dözümlü olanlarladır!”

# 39

Kişi yarımqalxmış vəziyyətdə dayanıb.

Bir cavan da ondan iki-üç metr aralıda yerə yıxılıb, bədənindən qan axır.

Kişi yanıqlı səslə qışqırır:

- Oğlum, Əhməd! Oğlum, Əhməd!

Allah vasitəsilə olmadan heç bir güc və qüvvə yoxdur!

Mən dedim ki, evdə qalaq; mən dedim, mən dedim...

Ya Allah! Ya Allah!

Diqqətlə övladına baxır.

- İlahi! Deyəsən tərpənir.

Qışqırır:

- O, nəfəs alır! O, nəfəs alır!

- Nəfəs alır?

- Gəlin aparaq!

- Siz Allah, gəlin aparaq...

# 40

Ayağına qəlpə girib. Dərindir, ağrıdır. Cərrah həkim deyir ki, onu əməliyyata hazırlasınlar.

Tibb bacısı həkimin qulağına nəsə pıçıldayır.

Həkim bərkdən deyir:

- Necə yəni? Axtarın, tapın. Narkozsuz olarmı?! Ağrı uşağı öldürər.

Həkim səs tonunu endirir. Özü də bilir ki, xəstəxana mühasirədədir və neçə gündür heç bir dərman gəlmir.

Yeniyetmənin üzünə baxır; mətanətli və mehribandır, ağrıdan qaralıb.

Üzünü ona yaxınlaşdırıb deyir:

- Oğlum, başqa çarəm yoxdur, qəlpəni ayağından çıxarmalıyam. Bilirəm ki, ağrıyır, ağrısı güclüdür də, amma sən kişisən, gərək dözəsən. Bilirsən ki, Quran möcüzə edir, sakitləşdiricidir. Allah Özü kömək edəcək. Ayağını əməliyyat etmək istəyirəm. Gərək Allahdan kömək istəyəsən, başqa yolumuz yoxdur. Quran oxu.

Xəstəxananın Cərrahiyyə şöbəsindən Quran səsi gəlir:

“Mərhəmətli və Rəhmli Allahın adı ilə.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

Mərhəmətli, rəhmli olana.

Haqq-hesab gününün sahibinə.

Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik…”

Və həkim qəlpəni çıxarır.

# 41

Təxminən 8-10 yaşlı oğlan gülə-gülə qaçır.

Əlində bir kasa var.

- Nə oldu? Bir şey gətirdin?

- Yox.

- Niyə gətirə bilmədin?

Eləcə gülür, acı-acı...

Sanki demək istəyir ki, bu nə sualdır verirsən?
Özün bilmirsən niyə?
Yenə soruşuram:
- Yemək aldın?
- Ölüm həyatdan mehribandır.
- Niyə ölüm mehribandır?
- Vəziyyət çox ağırdır.
Gözlərinin kənarından yaş damcıları süzülür.
Kasasına baxıram; boşdur.
Bir qədər irəli gedib 30-40 uşağın əllərində kasa və qazan dayandıqlarını görürəm.
Onların biri kasasını lobyaya bənzər bir şeylə doldura bildiyinə görə sevinir.
Özünə, qardaş-bacısına və bəlkə, həm də anasına yemək aparır.

# 42

İsrailli çavuş qışqırır:
- Ey! Yığışın gedin, bura hərbi zonadır!
Əl-Xəlil, Raməllah və Qərb sahilinin bir neçə bölgəsində kəndləri boşaltmaq əmr olunmuşdur.
Fələstinli bir qadın fağır görkəmdə yaxınlaşıb deyir:
- Bu torpaq bizə babalarımızdan qalıb. Biz çox qədimdən burada yaşayırıq.
Sionist hərbçi qadını itələyir. O, yerə yıxılır, sonra torpaq üstə oturub deyir:
- Qəsəbə sakinləri gecə evlərimizə hücum etdilər. Bizi döydülər. Öldürmək istəyirdilər. Təxminən on beş ailəni

zorla didərgin saldılar. Biz niyə öz evlərimizdən getməliyik?!

İsrail əsgərləri artıq silahla onun başı üstə dayanmışlar.

Onların biri çəkməsini qadının belinə qoyub sıxır.

- Ey! Yığışın, bura hərbi zonadır!

# 43

Bir qız uşağının səsi gəlir:

- Onlar öldülər!

- Öldülər?

- Bəli.

- İndi maşında sənin yanındadırlar?

- Bəli.

- İndi harda gizlənmisən? Sən harda gizlənmisən?

- Maşında.

- Maşında? Bayırda deyilsən?

- Yox, maşının içindəyəm.

- Əzizim, maşının içində qal. Mən də burdayam, səninlə danışacağam, kəsmirəm. Yaxşı?

- Yaxşı. Bir tank... Yanımda bir tank var.

- Tank hardadır?

- Yanımda.

- Sənə yaxındır?

- Bəli, bəli.

- Hərəkət edir, yoxsa dayanıb? İçindən adam çıxdı?

- Bəli, hərəkət edir...

- Hərəkət edir?! Maşının yanında hərəkət edir, yoxsa arxadan gəlir? Ya da qabaqdan?..

- Qabaqdan.

- Tank qabaqdan sənə sarı gəlir?
- Bəli.
- Çox yaxındır?
- Bəli, çox-çox yaxındadır. Ay Allah!..
- Gəlir?
- Bəli.
- Yaxşı; qorxma!
- Mənimlə qal.
- Mən səninləyəm, əzizim. Kimsə səni aparmağa gəlincə mən səninlə qalacağam. Mən səni tək qoymayacağam.
- Kimsə gəlib məni aparsa, kəsərsən.
- Yox, mən səninlə qalacağam. Qırmızı ayparadan, ya da başqa bir yerdən kiminsə gəlib səni apardığına əmin olmayınca kəsməyəcəyəm.
- Birdən, Allah eləməmiş, əsgərlər gəlsələr də kəsmə; yaxşı?
- Biz kəsmək istəmirik. Mən burdayam, səninləyəm.
- Gəl, məni apar, xahiş edirəm.
- Can, nə dedin?
- Lütfən mənimlə qal.
- Əzizim, vallah, mən səninləyəm; mən burda səninləyəm, səninlə danışacağam, telefonu kəsməyəcəyəm.
- Saat neçədir? Təxminən axşam olub.
- Nə?
- Təxminən axşamdır, mən qorxuram. Gəl, məni apar. Xahiş edirəm, sən Allah, gəl.
- Əzizim, vallah, gələ bilsəydim, gəlib səni aparardım. “Ya Allah” de!
- Ya Allah! Ey Rəbb, bizi qoru!

Tank tırtılının bərk əşya ilə toqquşma, sonra da maşının əzilmə səsi gəlir.

O səs-küydə eşidilməyən isə tankın altında qalan uşağın tük ürpədən qışqırtılarıdır...

# 44

Rəşadətli Yəmən ordusu İsrailin icarəsində olan “Qalaksi lider” adlı Yaponiya gəmisini cəsarətlə saxlayır.

Amerika qorxuya düşür. İngilislər tir-tir əsir. Fələstinlilər gülümsəyirlər.

Artıq yəmənlilər onu bir istirahət mərkəzinə çevirmişlər.

Oranı bəzəyib əylənmələri qərblilərin gücünə lağ eləməkdir.

Bir neçə yəmənli gənc çiynində silah gəminin göyərtəsində xəncərlə rəqs edir.

İŞİD-in dövründə Suriya və İraqa getmək üçün uzun müddət döymədiyi qapı qalmayan Hüseyn adlı iranlı gənc ah çəkib deyir:

“Döyüş meydanının ortasında belə bir rəqsdir arzum!”

# 45

Fələstinli yeniyetmə aldığı yaradan şəhid olmaq üzrə olan atasının başı üstə oturub onu dinləyir:

- Yadındadır, neçə gün qabaq soruşurdun ki, bu qədər şəhid və yaralı nə üçündür? Yadındadır, deyirdin ki, hər şeyimizi itirdik? İndi qulaq as:

Bir zaman biz düşmən ordusundan qorxurduq, bu gün isə onlar bizim gücümüzdən qorxurlar!

Biz şüarla və daşla başladıq, bu gün isə raketimiz var!

Bir zaman bizi yalnız İran müdafiə edirdi, bu gün isə Yəmən raketləri, İraq müqaviməti PUA-ları və Hizbullah da raketləri ilə bizimlədirlər.

Biz Amerikanı rüsvay etdik. Biz işğalçı rejimin rəhbərlərinin üzündən niqabı götürdük. Çoxlu xalqlar bizi dəstəkləyirlər.

Bir zaman qul kimi zillət içində ölürdük, bu gün isə qürur və ümidlə ölürük.

Ata bu sözləri deyib gözlərini yumur.

Yeniyetmə oğlan yumruqlarını düyünləyib öz-özünə pıçıldayır:

“Bu yol həyat yoludur!”

# 46

Xəstəxananın dəhlizində gözlərini açanda ona dedilər ki, anası, qardaşı və bacıları şəhid olublar.

Ürəyinə böyük qəm-kədər çökdü. Anası, gözəl anası, balaca qardaşı...

Özünü saxlaya bilməyib ağlamağa və ağı deməyə başladı:

- Anam, anam, sənsiz nə edərəm?! Sənin yoxluğuna necə dözərəm?! Bütün həyatım getdi! Həmdəmim, sirdaşım anam!

Gözləri dəhlizin digər tərəfinə sataşdı.

Başqa bir çarpayıda üz-başı sarınmış yaralı atası uzanmışdı.

Ürəyi ağrı və qanla dolu olsa da, sevindi.

Ən azı yaralı atası yanındaydı.

# 47

Ana
Ata
Qızlar
Oğullar
Əmi
Əmioğlular
Əmiqızılar
Xala
Dayı və s.

Göydən bomba yağdı və bir ailədən iyirmi beş nəfər şəhid oldu.

Düşünürəm ki, görəsən ağı deyib ağlamağa bir kəsləri qalıbmı...

# 48

- Ərəblər, haradasınız?!

Fələstinli kişi qışqıraraq qollarını havada yellədir:

- Əgər İslamı qəbul edirsinizsə, biz müsəlmanıq! Əgər sizinçün milliyyət və ərəb olmaq önəmlidirsə, biz ərəbik! Əgər insanlığınız varsa, biz insanıq! Hardasız, ərəblər?! Biz pul istəmirik. Biz azad yaşamaq istəyirik. Bu günah siz ərəblərin boynunadır. Mən ailəmdən şəhid vermişəm.

Hələ də qışqırır:

- Evimiz yoxdur, amma duz yeməklə həyatda qala bilsək, biz Qəzzədə yaşamaq istəyirik. Ey ərəblər! Yerdəkilərə rəhm edin ki, Allah da sizə rəhm etsin.

Ətrafına bir qrup adam toplaşıb. Biri deyir ki, onlara ümidimiz yoxdur, ərəb dövlətləri neft pulu ilə Amerikaya və avropalılara kömək edirlər, bizi isə heç dildə də müdafiə etmirlər.

Beli bükülmüş bir cavan deyir:

- Bizi onların silahları ilə öldürürlər. Biz acıq. Bizim uşaqlara verməyə yetərincə suyumuz da yoxdur.

Kişi yenə qışqırmağa başlayır. Bilir ki, eşidən olmayacaq, amma deməlidir:

- Ey ərəblər! Ey ərəb dövlətləri! Allahdan qorxun! Məgər biz müsəlman deyilik?! Hər gün şəhid veririk, yaralanırıq; hər gün evlərimizi başımıza uçururlar.

Bu günah siz ərəblərin boynunadır.

# 49

İyirmi beş yaşlı gənc Aron Buşnel İsrailin Vaşinqtondakı səfirliyinə gedir. O, ABŞ HHQ-nin zabitidir, əyninə hərbi forma geyib.

Deyir ki, mən bu soyqırıma bundan artıq dözə bilmərəm. Bütün bu əclaflıqları görüb ürəyi ağrıyır. Qərara

gəlib ki, etriaz etsin və bu etirazı bir yolla bütün dünyaya çatdırsın.

ABŞ hökuməti israillilərin cinayətlərini normal və haqlı bilir, Aronsa bununla razılaşmır. Bu qədər zülmü görüb sakit qalmağa onun vicdanı yol vermir. Qərarını vermişdir. Yolboyu danışır və səsini mobil telefonuna qeyd edir.

O, vəsiyyətnaməsində yazmışdır:

“Bu şəkildə tərk etdiyimə görə qardaşımdan və dostlarımdan üzr istəyirəm. Özünü yandırmaq dəhşətli hadisədir, amma Qəzzədə baş verən cinayətlər qədər yox. Lakin bu sistem qan istəyir. Bunların heç biri insafdan deyil. Mənim külümü azad Fələstinə səpərsiniz!”

Səfirliyin qarşısında dayanır. Qabın qapağını açıb benzini başına tökür. Papağını başına qoyub alışqanı yandırır. Bədəni alovlanır.

Özü əvvəldə demişdi ki, bu etiraz sionistlərin cinayətləri müqabilində əhəmiyyətsiz bir şeydir.

Qəzzədəki soyqırımla bağlı ABŞ və İsrailə qarşı etiraz səsi olmaq istəyir.

Başdan-ayağa alovlanır.

Hamının gözü önündə yanır.

Bəzi insanlar qorxub qaçırlar.

Bəziləri qışqırır, ağlayırlar.

Bir neçə nəfər telefonla şəkil çəkir.

# 50

Sionistlərin hava hücumundan aldığı yaranın izi hələ arıq üzündə qalıb.

- Necəsən? – deyə ondan soruşuram.

Acı təbəssüm edir.

Fələstinli uşaq təbəssümü ilə bütün dünyanı mühakimə edir.

Görünür bomba, raket və gülləni bir şəkildə qəbullanmışdır.

Bir qədər sakit qalandan sonra deyir:

- Nə yeməyə yemək var, nə də xərçəngimin müalicəsinə dərman.[1]

# 51

Şimal bombalanır.

Şimal boşaldılmalıdır.

Tanklar şimalda cövlan edir.

Şimal yerlə yeksan olur.

Bəziləri təzyiq və məcburiyyətdən cənuba köçür.

Amma...

Şimal bombalanır.

Cənub bombalanır.

Tanklar cənubda cövlan edir.

Bütün Qəzzədə heç bir təhlükəsiz nöqtə yoxdur.

---

[1] Qəzzə əhalisinin "əl-Cəzirə" kamerası ilə dərdləşməsi

# 52

Həkimdir. Ömrünün əlli baharı keçib. Artıq neçənci gecədir yaralılara görə gözlərini yummur. Çarpayıların üstündə və dəhlizlərin yerində ağrıdan zarıyan balaca uşaqların səsi qəlbini incidir.

Yanındakı tibb bacısına deyir:

- Analarını axtaran uşaqların ağlar gözlərinə baxa bilmirəm. Bu uşaqlara WCNSF[1] deyirik; yəni tək və kimsəsiz yaralı; ailəsinin yeganə sağ fərdi özü olan yaralı uşaq.

Tibb bacısı ağlaya-ağlaya deyir:

- Doktor, bəs uşaqlarını xəstəxanalarda tapmayıb morqlarda, cəsədlərin arasında axtaran anaların qan qoymuş gözləri ilə nə edək?! Onlara nə deyək?!

# 53

Fələstinli qoca deyir:

- Neçə aydır Rəfəhdə qaçqınam, onun küçələrində gəzirəm.

Nə qala bilirəm, nə qayıda.

Burda ev yoxdur.

Burda su və yemək yoxdur.

---

[1] Wounded Child No Surviving Family

Orda da ev yox idi.
Orda da su və yemək yox idi...
Hər şey dağılıb, xaraba qalıb.

# 54

“Siqnal verməyin! Bura xəstəxanadır!” yazılmış tablo Baptist xəstəxanasının həyətində yerə düşüb. Onun yanında işarə barmağı ilə sükut işarəsi verən tibb bacısının yarısı yanmış şəkli var.

Baptist xəstəxanası bu gecə sübhə qədər onlarla ton bombanı və çoxlu ağır partlayış səslərini təcrübə etmişdir.

Xəstəxananın həyətində qana bələşmiş və parça-parça olmuş onlarla uşaq və qadın cəsədi var. Xəstəxananın bir hissəsi yanır. Xəstələr yarıyanmış paltarlarda yerə uzanmışlar.

Təcili yardım maşınlarının səsi, yaralıların iniltisi və anaların qışqırtısı gəlir.

Yaşlı gözlərim yerə düşmüş tablolara dikilir:

“Siqnal verməyin! Bura xəstəxanadır!”

“Sss! Sakitliyə riayət edin!”

# 55

Fələstinli oğlan deyir:

- Uçqun altında bir mələk gördüm.

O, mənim əlimdən tutdu.

Mənə dedi ki, yaşayacaqsan.
O, işıqlı idi.
O, məni qaranlıqdan və təklikdən qorxmağa qoymadı.
Məni çıxarana qədər yanımdaydı.

# 56

Bir dəstə sionist vahimə içində qaçır.

Qorxu və iztirab dolu sığınacaqda bir dəstənin hay-küyü eşidilir:

Hizbullah!
Dəqiq raketlər!
Seyid Həsən Nəsrullah!
İran!
Yəmən!
Doğru vəd!
Onların biri bərk qorxu içində deyir:
- Yer ayaqlarımızın altında titrəyirdi.

# 57

İsrail əsgərləri atılıb-düşür, oynayırlar.
Ortada bir beşiyə təpik dəyir.
Körpə qız paltarları birinin süngüsünün ucunda oynayır.
Bir plastik top hər tərəfə atılır.
Cırıq-cırıq olmuş gəlincik yerə düşüb.
Otağın küncündə qırmızı ayaqqabı tayı görünür.

Görünür qaçanda qız uşağının ayağından çıxıb.

Qəhqəhə çəkirlər.

Oyuncaqları əl-əl gəzən uşaqların qurumuş qanları çəkmələr altında tapdanır.

# 58

- Adın nədir?

- Məryəm Mahmud Mahir.

- De görüm, niyə narahatsan?

- Evimiz dağılıb. Vəziyyətimiz çətindir. Biz məktəblərə sığınmışıq, çörəksiz-filansız kəklikotu yeyirik.

- Atan sizə necə yemək gətirir?

- Ata cənnətdədir; ata şəhid olub!

- İndi niyə narahatsan? Nəyiniz çatmır, mənə de.

- Hər şey! Çörək üçün darıxırıq. Hər şey üçün darıxırıq.

# 59

Evə çatanda bildik ki, ərazini bombalamaqla hədələyiblər.

Digərləri kimi mən, yoldaşım və uşaqlarım da evi boşaltmaq istəyəndə bombardman başladı və oğlum yaralandı. Özümü xəstəxanaya necə çatdırdığımı bilmədim.

On beş ildir Fələstin Qırmızı Aypara Cəmiyyətində, Deyr əl-Bələh vilayətinin Təcili yardım mərkəzində tibbi

yardımçı işləyirəm. Heç vaxt düşünməzdim ki, bir gün oğlum gözlərim önündə yaralana və mən öz təcili yardım maşınımla onu xəstəxanaya apara bilərəm.

Heç vaxt ağlıma gəlməzdi ki, oğlum öz təcili yardım maşınımda şəhid ola bilər.

Biz Allahdanıq və Ona doğru qayıdacağıq![1]

# 60

Təcili yardım uşaqları gəlirdilər.

Təcili yardım maşınının səs siqnalı partlayış səsinə qarışdı. Sığınacaqdan çıxdım.

Təcili yardım maşını dörd tibb işçisi ilə birlikdə vurulmuşdu. Hücum mənim gözlərim önündə baş verdi.

Çox acınacaqlı və ağrılı səhnə idi. Həmkarlarımın yanmış cəsədləri önündə aciz vəziyyətdə dayanmışdım, əlimdən heç nə gəlmirdi.

O an həyatımın ən ağır anı idi.

# 61

Süməyyə ayağa qalxır.

Jurnalist jiletini geyir və başına kaska qoyur. Çadırdan çıxır.

Onu görüb salam verir və hara getdiyini soruşuram.

---

[1] Tibbi yardımçı və təcili yardım sürücüsü Nadir əl-Buheysi

Təbəssümlə cavab verir:

- Qəzzənin problemlərindən və bahalıqdan reportaj hazırlamalıyam. Yeniyetmələrlə də bir neçə müsahibəm var.

Deyir ki, qəzzəli uşaqların yanında olmaq, başlarına gələn hər hadisəni işıqlandırmaq və Fələstin xalqının əzablarından danışmaq istəyirəm.

- Bilirsən ki, İsrail nə qədər jurnalist öldürüb? – deyə soruşuram. – Qorxmursan?

- Yox; əsla qorxmuram.

O, Qəzzənin ən balaca jurnalisti Süməyyə Vəşşahdır.

# 62

Kişi yetim qalmış qız uşağını qucağına götürüb. Qanlı paltarını çıxarmışdır. Boyun və sinəsinin qabarmış sümüklərini göstərən maykasında da qan ləkələri var.

O qışqırır. Bu qışqırtıda ağrı və etiraz qoxusu var.

- Ona necə deyim ki, ata-anan şəhid olub?! Kimsə onun ata-anasını geri qaytara bilər?!

- Ey müsəlmanlar! Bu şəhər yetim uşaqla doludur. Biz mitinqlərdə daha çox iştirak etmənizdən və sosial şəbəkələrdə “Uşaq qətlini dayandırın!” cümləsini daha çox yazmanızdan başqa bir şey istəmirik.

Yalnız bu qədər!

Görünür bütün gücünü bu cümlələrdə xülasə etmişdir. Daha davam edə bilmir.

...Qəzəb və kədərin ağırlığından huşunu itirir.

# 63

Qardaşım qışqırmağa başladı.
Məni çağırırdı:
- Kamal! Kamal!
Bilirəm ki, sağ idi. Vallah, sağ idi, amma...
Amma birdən səsi kəsildi.
Zənnimcə, üzünə və ağzına uçqun düşdü.
Daha məni çağırmağa taqəti çatmadı.
Yalnız sızlayırdı...
Əlvida, qardaş!

# 64

Uzun növbə vardı.

Qəzzə əhalisi humanitar yardım almaq üçün saatlarla ayaq üstə dayanmışdı. Övladlarının aclığı onları əl-Rəşid prospektində un gətirən yük maşınlarını gözləməyə vadar etmişdi.

Əbu Həmzə yanındakı adamla danışırdı.

Fatimə fikrə dalıb gələcək barədə düşünürdü.

İsmayıl siqaretini qullablayır, tüstüsünü havaya göndərirdi. İki övladı bombardmanda şəhid olmuşdu, həyat yoldaşı və iki yaralı uşağı da çadırda oturub onun un gətirməsini gözləyirdi.

Dərisi büzüşmüş əlləri və sanki əlli il dərd çəkmiş üzü olan onyaşlı Hacər ailəsinin yeganə sağ üzvü qardaşı Xalidlə birgə onların arxasında dayanmışdı. Növbədə yerləri olduğuna görə sevinirdi. Gəlinciyinə nağıl danışır, arabir qardaşının başını sığallayırdı.

Yük avtomobilləri sionist rejiminin yoxlanış məntəqələrindən keçib əl-Rəşid prospektinə daxil oldu. Camaat sıxlaşdı. Yük maşınları yaxınlaşanda hamı ayağa qalxdı, sıradan çıxıb kənarda oturan və ya uzanan şəxslər yerlərini tutdular. Bir az səs-küy yarandı.

Gözlənilən zaman gəlmişdi. Lakin qəfildən ABŞ istehsalı olan 5,56 mm kalibrli M16 avtomatının atəş səsləri gəldi.

Növbə pozuldu. Bir qisim qaçmağa başladı, bir qisim yerə uzandı; bir qisim qana qəltan edildi, bir qisim də tankların altında qaldı.

Əbu Həmzənin dili tutulmuşdu.

Fatimə daha heç nə düşünmürdü.

Kaş həyat yoldaşı və uşaqları İsmayılın parçalanmış üzünü görməyəydilər!

Hacərin yaralarından qan fəvvarə vururdu. Hələ də qardaşının əlini tutmuşdu və uşaq qışqırırdı.

Bir qədər sonra əl-Rəşid prospektini yaralıların iniltisi və əzizlərini axtaranların ağıları bürüdü.

Fələstinin Qəzzədəki tibb mərkəzləri bu şəkildə yaralanmış bu qədər insana yetərli xidmət göstərməyə qadir olmadığını bildirdi.

Müxbirlər un növbəsindəki qətliamda azı 112 nəfərin şəhid olduğunu və 750-dən çox insanın yaralandığını elan etdilər.

İsrail isə bildirdi ki, bir qrup fələstinli yük maşınlarının altında qalaraq həlak olmuşdur!

Co Bayden mehriban tərzdə itinə yemək verə-verə dedi: “Biz bu hadisə barədə iki ziddiyyətli açıqlamanı dəqiqləşdirməyə çalışırıq”.

# 65

Tüstü,
Alov,
Qan,
Partlayış,
Ölüm,
Yaralanma...
Ana öz şəhid uşağını qolları üstə qaldırıb.
Bir neçə yüz metr aralıda isə bir fələstinli ana dördəm əkizlərini dünyaya gətirdi.
Fələstin anbaan törəməkdədir.

# 66

Qəzzə zolağının cənubundakı Rəfəh şəhərində yerləşən BƏƏ xəstəxanasında vaxtından əvvəl doğulmuş dörd körpəni küvəz aparatına qoymuşlar.

Baxıram.

Həyatlarının başlanğıcında bir insan qədər payları olmasa da, hər halda, bəxtəvər uşaqlardır.

Əgər elektrik enerjisi kəsilməsə;
Əgər xəstəxana bombalanmasa;

Əgər süd və ya quru süd tapılsa;

Əgər sionist əsgərlər onları HƏMAS üzvləri hesab edib gülləbaran etməsələr;

Əgər...

Əgər...

Əgər...

# 67

Gecədir. Göydən və yerdən atəş yağır.

Hərə bir küncə sığınıb. Hətta ICU xəstələrini də sütunların yanına və pilləkənlərin altına aparmışlar.

Şöbələrin həkim, tibb bacısı və digər işçiləri həm xəstələri, həm də özlərini qorumalıdırlar.

Bir neçə gün öncədən qalmış qanların və cəsəd parçalarının iyi havanı ağırlaşdırmışdır.

Bir neçə dəqiqədən sonra həyatda olub-olmayacağını heç kim bilmir.

Gənclərin biri deyir:

- Bu gecə alınmayacaq, amma sağ qalsaq, yüz şəhidi dəfn etmək üçün əl-Şəfa kompleksində kütləvi məzar qazmalıyıq.[1]

---

[1] Qəzzə Səhiyyə nazirinin müavini

# 68

Əbu Zeynəbin evindən heç nə qalmayıb. Dirəklər qırılıb, divarlar uçub...

Balaca qızın sağ əlində karandaş görünür. Üzü torpağın üstündədir.

Ağzından başlayan qan izi dəftərinin üstünə qədər uzanır.

Bir neçə addım aralıda yerdə bir kişi cəsədi var. Yəqin ki, Əbu Zeynəbdir.

Zeynəbin imla dəftərinin ağ, amma tozlu və qanlı səhifəsinə belə yazılıb:

"Biz təslim olmuruq! Biz sonacan dayanmışıq!"

# 69

Rəcəb Tayyib Ərdoğan tərəfdarları önündə çıxış edir:

- İçərisində qadınların, uşaqların, günahsız sivillərin olduğu bir xəstəxananı vurmaq İsrailin ən təməl insani dəyərlərə zidd hücumlarının son nümunəsidir.

Qəzzədə yaşanan və tarixdə bənzəri olmayan bu vəhşiliyi dayandırmaq üçün bütün bəşəriyyəti hərəkətə keçməyə çağırıram!

Bir dəstə əl çalır.

Bir dəstənin dodağında təbəssüm var.

Bir dəstə onu tərifləyir.

Bir yeniyetmə də yanında dayanmış atasından soruşur:
- Bəşəriyyət hardadır? Kimdir? Nədir?

## 70

Sionistlər dayanmadan atəş açırlar. Onlar xəbərdarlıq etmişdilər ki, bölgədə heç kəsin varlığına dözməyəcəklər.

Əta İbrahim əl-Müqəyyəd adlı 72 yaşlı qoca evində qalmış, bölgəni tərk etməkdən boyun qaçırmışdı.

İndi bir torpaq komasına çevrilmiş evindən ayrıla bilmirdi.

Nəhayət, qızının israrından sonra razılaşıb yavaş-yavaş bayıra çıxdı. Ayaqları ağrıdığına görə axsaya-axsaya yeriyirdi.

Sionist əsgər gülüb dedi:

- HƏMAS-çı xəbərdarlıqlara məhəl qoymur. Elə bilir, qəhrəmandır.

Bir neçə dəqiqədən sonra qocanın qanlı cəsədi yerə düşmüşdü...

O, kar idi.[1]

## 71

Qəzzə Baptist xəstəxanası sionist rejimin qırıcıları tərəfindən bombalanmışdır.

---

[1] "Əl-Cəzirə" televiziya kanalı

Bütün dünya əhalisi şokdadır.

Sionist rejimin naziri İtamar Ben-Qvir X sosial şəbəkəsində bu hadisəyə belə münasibət bildirir:

“HƏMAS girovları azad etməyincə Qəzzəyə lazım olan HHQ-nin yüz tonlarla bombasıdır, bir qram da humanitar yardım deyil!”

Masasının üstünə qoyulmuş qəzetin manşetini görür:

“Dördüncü Cenevrə Konvensiyasının 18-ci maddəsi:

Yaralı və xəstələrin müalicəsi, aciz xəstələrlə və doğuşla bağlı qeyri-hərbi xəstəxanalar heç bir şəraitdə hücuma məruz qalmamalı, münaqişə tərəfləri həmişə onlara hörmət etməli, qorumalıdırlar”.

Siqaretini yandırıb gülür.

# 72

Sionist hərbçi səsucaldandan qışqırır:

- Evdən çıxın! Əllərinizi başınıza qoyub evdən çıxın! Siz cənuba getməlisiniz!

Son dəfə deyirəm: Bir dəqiqədən sonra evi yerlə bir edəcəyik!

Fələstinli qoca və oğlu ağ bayraqla evdən çıxır. Təslim əlaməti kimi əllərini yuxarı qaldırmışlar.

Qoca narahatdır. Əsgərlərin qəzəbli gözlərini görüb qorxur, onlara inanmır.

Birdən əsgərlər onun gözləri önündə oğlunun başına güllə vurub şəhid edirlər.

Qocanın ah-naləsi göylərə ucalır:

- İlahi! İlahi!

Oğlunun cəsədinə baxır. Başı parçalanmışdır.

- Sənə dedim ki, bunlar yalan deyirlər!
İlahi! Mən nə edəcəyəm?!
Oğlum, sənə dedim ki, evdə qalaq!

# 73

Qəzzənin şimalından olan əlli beş yaşlı Əbdüləziz Məhəmməd öz ailəsi və başqa üç ailə ilə birlikdə cənubda bir dostunun evində qalır.

Sayları təxminən otuz nəfərdir.

Deyir:

- Yardım?! Nə yardımı?! Biz onun adını eşidir, özünü görmürük.

Sonra əlavə edir:

- Mənim böyük bir evim və müxtəlif ərzaqla dolu iki soyuducum vardı. Mineral suyum və elektrik enerjim vardı. Müharibə başlayandan iki ay sonra isə bir tikə çörək axtarıram.

# 74

Ata uşaqlarının əlindən tutub ağır-ağır addımlayır, ayaqlarını yerlə sürüyür.

Onları analarını görməyə aparacağını deyib.

Yalnız bir daşla nişan qoyulmuş məzarın yanında daynır, özünü qəbrin üstünə atır.

Uşaqlar ağlayır, baş və sinələrinə vururlar.

- Anam!..

- Əziz anam...

- Kaş biz də səninlə öləydik! Kaş bu qədər əzab və müsibət görməyəydim! Mənə əziz olan hər şeyi itirdim.

- Niyə bizi tərk etdin, ana?!

Bu, ilk ramazan ayıdır ki, ailənin övladları anaları olmadan yaşayacaqlar.[1]

# 75

Yusif şəhərdə araşdırma aparandan sonra reportajını yazır:

"İndi mən Cibaliyadayam. Burada əhali acından ölür. Bu səhər nə qədər axtardımsa, almağa bir çörək tapmadım.

Dükanlarda yalnız uşaq şokoladları və bir qədər lobya konservi var, o da əlli qat bahasına.

Bir nəfərin didərgin düşmüş ailə üzvlərini doyurmaq üçün eşşək kəsdiyini gördüm.

Əgər tapılsa, bir kisə unun qiyməti (İsrail valyutası ilə) min şekeldir".

Kürəyinə vurub deyirəm:

- Mən də görmüşəm. Bu gün eşitdim ki, un tapılmadığına görə bəzi insanlar çarəsiz qalıb onun yerinə heyvan otlarından istifadə edirlər. Narahat olma, ramazana az qalır. Bəlkə, bu il BƏƏ rəhbərliyinin iftar ziyafətlərində

---

[1] Qəzzə əhalisinin "əl-Cəzirə" kamerası ilə dərdləşməsi

qonaqlar süfrə duasında yəhudi xaxamla birlikdə bu aclar üçün də dua edərlər.[1]

## 76

Qoca son nəfəslərini alırdı.

Bütün ailəsi şəhid olmuşdu. Oğullarının dəcəllikləri, qızının gözləri, həyat yoldaşının mehribanlığı – hər şey gözləri önündən keçirdi.

Başı üstə oturub gözlərinin üstündəki qanı və toz-torpağı təmizlədim.

Bəlli idi ki, yaşamayacaq.

- Bir şey istəyirsənmi? – deyə ondan soruşdum.

Mənə baxıb heç nə demədi.

- Bilirəm ki, əlimdən bir şey gəlməz... amma... – deyib ağladım.

Acı təbəssümlə dedi:

- Dünyaya deyin ki, əsl Holokost buradadır.

## 77

Yəzən əl-Kəfarənə on yaşındadır. Məsum gözləri, soyuq baxışları var.

---

[1] Qəzzənin şimalında yerləşən Cibaliya şəhərindən jurnalist Yusif Faris

Udmaq problemindən əziyyət çəkir. O, banan və yumurta kimi qidaları əzərək yeyə bilir. Ailəsi təhlükəsiz yer axtararaq Qəzzə zolağının şimalından cənubda yerləşən Rəfəh şəhərinə didərgin düşüb.

Anası deyir:

- Onun arıq bədəninin ehtiyaclarını təmin etmək üçün heç nəyim yoxdur. Ona uyğun qidalar tapılmır və o, günbəgün arıqlayır.

Onu Rəfəhin Əbu Yusif əl-Nəccar xəstəxanasına yerləşdiriblər.

Çəkisi çox azalıb, dərisinin altından sümükləri çıxıb, bədəni kiçilib və sınıxıb, üzündə bir dəri, bir sümük qalıb, dişlərini saymaq olur.

Yəzən on gün yemək çatışmazlığından və pis qidalanmadan skeletə döndü və sonra...

Anası qan ağlayaraq deyir:

- Yəzən bir quş kimi uçub cənnətə getdi. Mən düşünməzdim elə bir vəziyyət yarana bilər ki, övladım acından həyatını itirər.[1]

# 78

Təxminən iyirmi tələbə Qəzzə şəhidlərinə qiyabi cənazə namazı qılır.

Qərara gəlmişdilər ki, məzlum Qəzzə əhalisinə kömək etməyə heç bir imkan yoxdursa, heç olmasa, iki rükət namaz qılıb dua etsinlər.

---

[1] Fələstin "Vəfa" agentliyi

Kitab və dəftərlərini yanlarında yerə qoyub əllərini göyə qaldırmışdılar, ürəkdən dua edirdilər:

- İlahi! Ey kimsəsizlərin kimsəsi və məzlumların köməkçisi! Otuz mindən çox adam şəhid olub. Qəzzəli uşaq və qadınların yurd-yuvaları yoxdur; Özün onlara kömək et!

Bir neçə dəqiqə keçən kimi universitetin mühafizəçiləri mərasimi saxlayıb tələbələrin birinə hücum etdilər.

Xəbər rektora çatanda əsəbi halda oraya gəldi, qışqıraraq onları təhqir edə-edə bildirdi ki, universitet siyasi aksiya yeri deyil.

Tələbələr mat-məəttəl qalmışdılar. Rektor onların dağılışmasını istəyirdi.

Bir tələbə dedi:

- Biz nə şüar deyir, nə də kiməsə maneçilik törədirik...

Sözünü tamamlamağa qoymayıb dedi:

- Dediyim kimi, hər hansı siyasi mövqe bildirmək qadağandır.

Rektor otağına qayıdandan sonra belə bir göstəriş verdi:

“Bu təxribatçı və pozucu tələbələrin dərslərə ad yazdırması qadağan olunsun, universitetin saytına girişləri tam məhdudlaşdırılsın və işləri hüquqi idarəyə göndərilsin”.

Bura İordaniya İslam Elmləri Universitetidir.

# 79

İsrail ordusunun əfsanəvi tankı təpənin başında yerləşən bir bazanın içindədir.

İsrailli zabit ona qürurla baxıb:

- Bu tank haqlı olaraq tanrıların faytonu[1] kimi məşhurdur, - deyir, sonra üzünü dostuna tutub əlavə edir: - Yüksək qabiliyyətli və yeni sensorlar, elektron döyüş sistemi, yüksək qabiliyyətli analitik kompüterlər, komandirin yaxşı görüş sahəsi, döyüş yerini yaxşı müşahidə və qarşı tərəfin hərəkətlərinə dəqiq reaksiya imkanları bu tankın xüsusiyyətlərindəndir.

Onun möhkəmliyi və mühafizə sistemi də misilsiz və əfsanəvidir. Zireh əleyhinə raketlər onun önündə baş əyirlər!

Bilirsən, ona Kornet raketləri ilə də birbaşa hücum mümkün deyil. Bu tanka xəsarət yetirməyin yeganə yolu yuxarıdan hücumdur ki, bu da dünyada yalnız və yalnız bir neçə zireh əleyhinə raketlə mümkündür. Onların ən məşhuru Amerikanın Javelin raketidir.

Uzaq məsafədən bir cavanın ürəkaçan və iqtidarlı səsi gəlir:

"Atanda sən atmadın, Allah atdı..."[2]

Livan Hizbullahı yeni bir silahı təqdim edir. Lazerlə idarə olunan bu silah eyni zamanda tanka doğru iki raket atır. Birinci raket tanka dəyib zirehini qırır, ikincisi isə əsas gövdəyə zərbə endirib israilli zabitlə birlikdə məhv edir.

Beləliklə, əfsanə reallıq qarşısında aciz qalır!

---

[1] "Merkava" ibranicə fayton deməkdir.
[2] Ənfal, 17

# 80

2021-ci ildə "Qüds qılıncı" əməliyyatı başlayanda İordaniya məscidləri onun çıxışlarını səsucaldanlardan yaydılar, Misirdə ona çoxlu nəğmələr qoşuldu və uşaqlar təkrarlamağa başladılar, Əlcəzairdə məktəb uşaqları öz teatrlarında onun rolunu oynamaq üçün yarışa girdilər, Livanda onu İslam ümmətinin sözçüsü adlandırdılar, məktəb imtahanlarına onun barəsində suallar saldılar.

25 İyul 2006-cı ildə əl-Qəssam batalyonlarının nümayəndəsi kimi, onyaşlı fələstinli qız Hüda Qaliyənin evinə raket hücumuna cavab olaraq bir sionist hərbçinin əsir tutulması xəbərini yaydı.

Bir müddət qabaq Qüdsdən olan beşyaşlı bir fələstinli uşaq Əqsa məscidinin önündə oyuncaq silahını qaldırıb ibranicə sionist əsgərlərə dedi:

- Əbu Übeydə yoldadır!

O, sionist rejim mediasının kabusudur.

Baxanda yalnız iki iti göz və bir qırmızı çəfiyə şalı görürsən.

Köynəyinin sinəsindəki etiketə yazılıb:

"Natiq əl-Əsgəri" (Hərbi sözçü).

# 81

Elyahu Mali sionist xaxam və dindar sionistlərə bağlı bir məktəbin direktorudur. Orduda əsgərlərin ruh düşkünlüyünə dair xəbərlər gəlir. Elyahudan bir videomüraciət göndərməsini istəyiblər.

Kamera önündə oturur. O, əxlaq və mənəviyyat müəllimi, ilahi təlimlərin carçısı olmalıdır. Lakin sionist xartiyasının əksinə gedə bilərmi?! Bu sionist xaxamın rəhbərlik etdiyi məktəb sionist rejim ordusunun həmkar məktəblərindəndir. Hər il çoxlu məzunları orduya və rejimin digər hərbi mərkəzlərinə daxil olur.

Paltarlarını səliqəyə salıb danışmağa başlayır:

- Əzizlərim! Bu müharibə müqəddəs bir müharibədir. Bəziləri müsəlmanların təbliğatına aldanıblar. Qəlbi xəstə və imanı zəif olanlar fələstinli terrorçuların qadın və uşaqlarının ağlamasını görüb zəifləyir, ürəklərində mərhəmət hissi yaranır. Bəs onlar bilmirlərmi biz üstün millətik və ərəblər bizə qul olmalıdırlar?!

Əgər Qəzzənin qadın və uşaqları ölməsələr, gələcəkdə bizə qarşı mübarizəyə qoşulacaqlar. Buna gör də onları öldürmək əxlaqi baxımdan yanlış deyil![1]

---

[1] Fələstinin "Səma" xəbər agentliyi

# 82

Bir qrup sionist hərbçi böyük bir qətliamdan gəlir, tankların və digər hərbi texnikanın yanında birlikdə rəqs edir, mahnı oxuyurlar.

Xaxam etiqad dərslərində onlara deyib ki, Yəhudi şəriətinə (613 göstərişdən birinə) əsasən, Allah Bəni-İsrailə bütün Əmaliq tayfasını,[1] hətta qadınlarını və uşaqlarını da öldürməyi əmr etmişdir.

İndi onlar öz vəzifələrini yerinə yetirdiklərini düşünürlər.

- Halaxaya[2] əməl və Əmaliq tayfasını məhv edəcəyəm! Biz Allahın əmrinə uyğun olaraq bütün Qəzzə əhalisini öldürəcəyik. Müharibədə mülki şəxs olmur. Biz Əmaliqin qadın, kişi və uşaqlarını öldürəcəyik!

Bir kənarda oturub fələstinli uşaqların parça-parça olmuş bədənləri və qanlarına qəltan edilən qadınlar barədə düşünən İshaq öz-özünə deyir:

"Yalandır! Tanrıya and olsun, yalandır! Tanrı və Onun elçisi belə cinayətlərə nifrət edir!"

---

[1] Əmaliq Bəni-İsraillə vuruşmuş və Tövratda adı keçmiş bir tayfadır. Bu tayfa Yəhudi mədəniyyətində nifrətlə anılır. Tövrata görə, İsrailin tanrısı Yəhvə bu tayfaya qəzəblənmiş, soyunu qurudacağına dair and içmişdir.

[2] Yəhudilikdə olan 613 göstəriş toplusuna işarədir.

## 83

Çox acdır. Ailəsi gözləyir. Süfrəyə yaxınlaşır. Hər gün olduğu kimi bu gün də qana bələşmiş fələstinli uşaqların üst-üstə yığıldığını görmüşdür. Ana fəryad qoparır, rəngi solmuş ata bir tikə çörək axtarır, cəsədlər günəşin altında çürüyürdü.

Götürdüyü tikəni boşqaba atdı. Həyat yoldaşı təəccüblə ona baxırdı.

Süfrədən uzaqlaşıb:

- Bacarmıram, - dedi, gözləri yaşla doldu. – Ağ una və çörəyə baxışım tamam dəyişib. Yediyim hər tikənin qana bulaşdığını hiss edirəm. Ağzımda pasa bənzər bir dad var, qəm-qüssə boğazımda böyüyüb məni boğur. Qəmsiz bir tikə çörək yemək üçün kim mənə kömək edə bilsə, bütün həyatımı ona verərəm.

## 84

İki qoca kişi televizor önündə oturub mübahisə edir. Onlar keçmiş sionist əsgərləridir.

Birincisi deyir:

- Mən müharibə xəbərlərini hər gün, hər saat izləyirəm. Bu, təzə bir şey deyil. Biz bu ərəbləri dəfələrlə belə şiddətli cəzalandırmışıq. Onlarsa hələ də müqavimət göstərirlər.

Məsələn, Fələstinin Tənturə kəndində baş verən hadisə çox dəhşətli və dəlicəsinə idi. Tənturə varlı bir kənd idi, çox gözəl evləri vardı. Əhali avropalılar kimi yaşayırdı. Başa düşürsən nə deyirəm? Bu kəndin qadınları qəşəng paltarlar geyirdilər.

Bir əsgər 16 yaşlı bir qıza təcavüz etmişdi. Burda çox dəhşətli olan bizim əsgərin vəhşiliyi idi. O, sonradan öldü.

O, fələstinliləri bağlı bir yerə toplayıb öldürmüşdü. Onları dəmir millərlə əhatəyə alınmış bir dəmir qəfəsə salıb oturtmuş, əsgərlərin biri də avtomatı götürüb hamısını öldürmüş, sonra darağını dəyişmişdi. Hadisə belə olmuşdu.

Əsgərlər hərbi odsaçanları götürüb kəndliləri yandırırmışlar. Bu, həqiqətən, qorxuncdur! Heç kimə bu barədə danışmağa icazə verilmirdi. Mən də heç yerdə danışmamışam. Bu, böyük bir rüsvaylıq ola bilər.

İkinci qoca gülə-gülə deyir:

- Mən bu haqda danışmaq istəmirəm. Mən üç-dörd ay müharibədə iştirak etmişəm. Mən heç vaxt əsir tutmamışam. Mən hamını öldürürdüm.

Əllərini yuxarı qaldırıb sözünə davam edir:

- Onlar əllərini yuxarı qaldıranda mən onları müharibə əsiri hesab etmirdim. Bu, mənə çox təsir edib. Mən hələ də bununla barışa bilməmişəm. O günlərdə hətta məktəb uşağı da əllərini qaldıranda mən onu öldürürdüm.

- Neçə nəfəri bu şəkildə öldürmüsən? – deyə dostu ondan soruşur.

- Mən saymamışam. Saymaq mümkün deyildi. Mənim ümumilikdə 250 patronum vardı. Mən atəş açıb hamısını öldürürdüm; saymaq mümkün deyildi, - deyə dostuna baxır və yavaşca əlavə edir: - Amma deyəsən bu dəfə fərqlidir. Onlar tufan kimi gəlmiş, dağ kimi dayanmışlar.

# 85

Anadır, oğlunun ayrılığına dözə bilmir. Onun necə şəhid olduğunu görmüşdür.

Övladına deyir:

- Biz qalibik! Çəkdiyimiz bütün əzablara baxmayaraq, təslim olmayacağıq. Əsla! Əsla! Allah bizimlədir və biz güclüyük!

Əzizim, sən Peyğəmbər övladlarından, Həsən və Hüseyndən artıq deyilsən. Onları da öldürdülər, başlarını kəsdilər!

Sonda isə:

- Allah səninlə olsun, oğlum! – deyir və ərəblərə xas şənlik səsi çıxarmağa başlayır.

# 86

İyirmi beş gündür İmadla birgə tuneldə gözləyir. Əmr verilən kimi çıxıb Kornet raketi ilə düşmən tanklarını ovlayacaqlar, amma daha neçə gün gözləməli olduqlarını bilmirlər. Pis yer deyil, amma uzun müddətdir ailələrindən xəbərləri yoxdur.

Həniyyə ilə Qasim Süleymaninin şəkillərini divara vurublar. Boya ilə divara bir yazı da yazıblar: "Qüds bizimdir!"

- Yadındadır, vaxt var idi daşla vuruşurduq? – İmada deyir.

- Ox-kamandan raketə. Şükür Sənə, İlahi! – İmad gülüb deyir və Şəhid Süleymaninin şəklini göstərib əlavə edir: - Mən onun kimi olmaq istəyirdim; onun əsgəri olmaq istəyirdim.

İbrahim deyir:

- Bilirsən ki, Hacı Qasim Süleymani bir neçə dəfə Qəzzəyə gəlib, tunel ideyası da onunla İmad Müğniyənin fikridir? Bilirsən ki, fələstinlilərin əlini də o doldurub?

İmad təsdiq əlaməti olaraq başını yelləyib deyir:

- Bilirəm. Yəhya Sinvar deyirdi: “General Qasim Süleymani açıq şəkildə bildirmişdi ki, Qüdsü müdafiə üçün bizim bütün güc və imkanlarımız sizin ixtiyarınızdadır; nə bir şey istəmiş, nə şərt qoymuş, nə də müqavimətin hər hansı formasına sövq etmişdi”.

Eşitmişəm ki, şəhadətindən bir neçə il qabaq komandir Məhəmməd əl-Zeyfə məktubunda yazmışdı:

“Hamı əmin olsun ki, təzyiqlər nə qədər çoxalsa, sanksiyalar nə qədər güclənsə də, İran Fələstini tək qoymayacaq! Fələstinin dostları bizim dostlarımız, düşmənləri düşmənlərimizdir! Bizim siyasətimiz belə olub və olacaq. Fələstini müdafiə İslamı müdafiənin bir nümunəsidir və kim sizin səsinizi eşidib məhəl qoymasa, müsəlman deyil!”

# 87

Mühafizəçi və yoldaşları narahatdırlar. Mossad, CIA və digərlərinin bütün kəşfiyyat imkanları onu tapmaq üçün səfərbər olunub.

Əbu İbrahim Qəzzədəki evinin xarabalığında divanın üstündə oturur. Rahatdır, üzündə zərrə qədər də həyəcan əlaməti yoxdur.

Beynində ötən illəri xatırlayır.

Qəzzə zolağının cənubunda yerləşən Xan-Yunis şəhərində qaçqın düşərgəsində doğulub. Fələstin İslami Müqavimət Hərəkatı – HƏMAS Qəzzədə fəaliyyətə başlayanda Şəhid İzzəddin Qəssam batalyonlarına qoşulub. HƏMAS hərəkatı yaradılanda ona ilk qoşulanlardan olub.

İyirmi iki ildən artıq İsrail həbsxanalarında dustaq olub, dörd dəfə ömürlük həbsə məhkum edilib. Son iyirmi ildə altı sui-qəsddən salamat qurtulub.

Gülümsəyir.

İllərdir gizli yaşayan və sionist rejimin terror məqsədilə təqib etdiyi şəxslərdən biri olan Yəhya Sinvar bu görüntünün sionistləri necə hirsləndirdiyini bilir.

# 88

Bayramdan bir neçə gün öncədən indiyədək xəstəxanada yatır. İndi ərinin onu ziyarət etməyə gəldiyini xəbər veriblər. Ürəyi sinəsində bərk döyünür. Onu çox sevir. Bütün çətin illərdə ona dəstək olub.

Niyə gecikir? Niyə gəlib çıxmır?

Gözlərini yumub keçmiş xatirələri təsəvvür edir.

Amal İsmayılın əmisi qızıdır. Hər ikisi 1963-cü ildə Qəzzədə Şati düşərgəsində dünyaya gəlib. İsmayıl uşaqlığında atası Əbdüssalamı itirib, ona və yeddi bacı-qardaşına Amalın atası olan əmisi Məhəmməd qəyyumluq edib.

İsmayılla Amal 16 yaşlarında ailə qurmuşlar. İndi 45 ildir birlikdə yaşayırlar.

Gözləri qapıya dikilib qalıb. Bəs niyə gecikir?

Qapıya iki yüngül zərbə dəyir. Yerindən bir az qalxır.

Əbuləbd İsmayıl içəri girir. Həmişəki kimi gülümsəyir. Gözlərindən eşq yağır.

Yaxınlaşıb Amalın başından öpür. Amal ona təşəkkür edir. Əlindən öpmək istəyir, amma üzü gəlmir; darıxmasına əhəmiyyət vermədiyi üçün şikayətlənmək istəyir, amma vaz keçir.

Bilir ki, onun kişisi bu gün bütün Fələstinə məxsusdur, bir neçə dəqiqəliyə onu görməyə gələ bilibsə, bu, dünya qədər dəyərlidir.

Əbuləbd çarpayının yanında oturub onun halını soruşdu. Amal dedi ki, bütün fələstinli qadınlar kimi, Allaha dua edir.

Amal uşaqların halını soruşdu.

İsmayıl xalqın müavimətindən danışdı.

Yenə soruşdu. İsmayıl bu dəfə də döyüşlərdən, onun yaratdığı problemlərdən və döyüşçülərin qəhrəmanlığından danışdı.

Həyəcanlandı.

- Soruşuram ki, Hazim necədir, Əmir necədir. Məhəmməd də halımı soruşmayıb. Hardadırlar?

İsmayıl daha özünü saxlaya bilmədi. Gözləri yaşla doldu. Necə desin və necə deməsin?!

Amma dedi.

Övladlarının və nəvələrinin şəhid olduğunu ona söylədi.

Amal yolayrıcında qaldı.

Ana hisslərini yaşasın, boğazındakı qəhəri aşkara çıxarsın, yoxsa keçmişdə olduğu kimi yenə İsmayıla möhkəm arxa-dayaq olduğunu göstərsin?

Allah kömək etdi.

Ah-nalə, hətta göz yaşları ilə də İsmayılının qəlbini incidə bilməzdi.

- İlahi, Sənin razı olduğuna razıyam! İlahi, Sənə şükür edirəm! – dedi, sonra çarpayıdan enmək üçün İsmayıldan kömək istədi, dəstəmaz alıb iki rükət şükür namazı qıldı. Üç övladı, nəvələri, gəlini və ailə üzvlərindən onlarla insan Şərafətli Qüdsün azadlığı yolunda qurban getmişlər.

Əbuləbdin əlini tutdu, barmaqlarını onun barmaqları ilə birlikdə qələbə işarəsi olaraq yuxarı qaldırdı.

# 89

Xəbər bomba kimi bütün İordaniyaya yayıldı: Bir iordaniyalı gənc əl-Kəramə keçidindən keçərək sionist hərbçilərə atəş açmış və üçünü məhv etmişdir.

Xalq küçələrdə şənlik edirdi. Media qurumları hadisəni təkrar-təkrar yayımlayırdılar.

Şeyx Habis dərhal əmisigilə getdi. Onun yanında olmaq üçün tez getməli idi.

Əmisi və həyat yoldaşı onu birlikdə qarşıladılar. Oturub hal-əhval tutdu.

Həyəcanlı və tərəddüd içindəydi.

- Necəsən? Hardaydın?

Xəbəri onlara necə söyləyəcəyini bilmirdi.

Televizoru açdı. Əl-Kəramə qəhrəmanlığının filmi yayımlanırdı. Yaxşı fürsət idi.

- Əmi can, görürsən, Mahir atəş açır!

Ona Mahirin şəhid olduğunu demək istəmirdi.

Əmisi ona baxıb maraqla soruşdu:

- Haradır?

- Əl-Kəramə keçidi.

Stulundan aralanıb Habisdən soruşdu:

- İsraillilləri öldürən o idi?

- Bəli.

- Şəhid oldu, ya yox?

Onu qucaqlayıb dedi:

- Hə, şəhid oldu.

Qocanın necə reaksiya verəcəyini, əmisi yoldaşının bu həqiqəti necə qəbullanacağını bilmirdi.

Əmisinin gözlərinə baxa bilmirdi. Ürəyində onu alqışlayırdı, amma hər halda, o da ataydı.

- Oğlum qəzzəli uşaqlardan artıq deyil, - deyib üzünü çevirdi.

Əmisi yoldaşı öz göz yaşları ilə islanmış məktubu Habisə doğru uzatdı. Habis məktubu alıb oxumağa başladı:

“Allahın salam, rəhmət və bərəkəti üzərinizə olsun!

Əziz anam və atam! Məni bağışlayın və məndən razı qalın. Mən Allahın izni ilə şəhid olacağam. Buna görə Allaha şükür edirəm. Sizdən istəyirəm ki, məni yada salmayın, amma gördüyüm işi yada salın, əbədiləşsin, ərəb ümmətinin, xüsusən də İordaniyanın övladlarında sionist işğalçılara qarşı mübarizə əzmi yaratsın. Çünki onlar bizim Qəzzə və Fələstindəki qardaş, bacı və uşaqlarımıza qarşı ən faciəvi cinayətləri törədirlər.

Ərəb qardaşlarım! Dininiz olmasa da, qeyrət və qürurunuz olsun!”[1]

# 90

Uşağa baxıram. Şokdadır. Onun qəbul vərəqini doldurmalıyam.

Onu gətirən tibb işçisindən soruşuram:

- Adı nədir?

- Bilmirəm.

- Atasının adı?

---

[1] IRIB Beynəlxalq şöbəsi

- Bilmirəm. Onu dağıntıların arasından tapmışam.
Uşaq danışa bilmir. Yalnız mənə baxır.
Vərəqə “8 saylı uşaq” yazıb onu rəqəmlə işarələyirəm.

# 91

Ayağının yarası irinləyib, şişib və ətrafı qaralıb. Güclü ağrısı var.
Tibb bacısı:
- Qoyun həkim gəlib baxsın, - deyir, sonra isə yanındakı tibb bacısına yavaşca pıçıldayır: - Yəqin ki, bu ayaq kəsilməlidir.
Kişi gülümsəyib deyir:
- Yaralarımız sağalacaq!

# 92

Anasının tez-tez dediyi sözlər yadına düşür: “Sən artıq böyümüsən! Sən evimizin kişisisən!”
Onu çox əzizləyirdi.
Anasının ona necə qürur və sevgi ilə baxdığını hiss edir, belə vaxtlarda köksünü qabardıb möhkəm dururdu.
Öz-özünə deyirdi ki, evin kişisi ailəsinin dirəyi olmalıdır.
Həmin səkkizyaşlı Əhməd indi, evləri bombalanandan sonra uçqun üzərindən anasının parça-parça olmuş bədən üzvlərini toplayır.

Əlində bir torba var.

## 93

Əlini şalvarının cibinə saldı. Üç şokolad vardı. Yusifə baxdı. Gözləri yumulmuşdu. Düyünlədiyi balaca əllərini öpdü.

Qırmızı qan üzünü örtmüşdü.

Yanaqlar, gözlər... çox şey qalmamışdı.

Yusifin yumruqlarını açıb şokoladları ovuclarına qoydu və yavaşca qulağına pıçıldadı:

- Əzizim, gecikdiyim üçün bağışla. Bundan artıq bacarmadım.

## 94

Doktor Mark Permor cərrah-ortopeddir. Şimali-Karolina ştatındandır. Ona 53-54 yaş vermək olar.

Mənimlə danışır. Bəllidir ki, imkanı olsa, qışqırar:

- Təxminən 30 ildə qırxa yaxın ezamiyyətdə olmuş, çoxlu hadisə və münaqişələr görmüşəm, amma onların hamısı birlikdə Qəzzədə şahid olduğum faciələrə çatmaz.

Külə dönmüş uşaqlar, tikə-tikə olmuş uşaqlar, bədən üzvləri kəsilmiş körpələr... Mən bunları görmüşəm.

O, ağrı dolu baxışlarla sızlayır:

- Mən sinələri snayperlər tərəfindən o qədər dəqiq şəkildə deşilmiş uşaqlar görmüşəm ki, ürəklərinin üstünə qulaqlıq qoya bilmirdim.

# 95

Məktəbə girmək istəyəndə təyyarələrin hücumunu gördü; qadın və uşaqların qaçışı, hay-küy, ürək yandıran qışqırtılar...

Qiyamət gözləri önündə canlandı.

Hər yeri tüstü bürüdü, kəsilmiş qol və ayaqlar havaya uçdu. İnsanlar qışqıra-qışqıra kömək istəyirdilər.

Məktəbə girdi.

Çəhrayı qız ayaqqabısı diqqətini cəlb elədi.

Qanlı idi.

Bəs qız hanı?

Çoxlu uşağı üst-üstə yığmışdılar. Cəsədlərin altından qan axırdı.

Mobil telefonunu çıxarıb video çəkilişə başladı.

Axşam hələ də hadisənin şokunda ikən onu paylaşıb altından yazdı:

"Qəzzənin Sinderellasından qalan yalnız budur!"

# 96

Saçı tökülüb.

Dəhşətli partlayış səsi ilə yuxudan oyandığı, evlərinin israillilər tərəfindən dağıdıldığı o lənətə gəlmiş gecədən saçı tökülməyə başlayıb. Uşaqlar ona keçəl deməsinlər deyə başını örtməyə məcburdur.

Hörüb başının iki tərəfindən salladığı qəşəng saçı yadına düşür.

Köks ötürür, bəzən də təklikdə ağlayır.

Saçının yenidən uzanmasını istəyir; saçının əvvəlki kimi olmasını istəyir.

# 97

Asirlə Əsil dördgünlük idilər. Sevimli əkizlər evi işıqlandırmış, səs-küylə doldurmuşdular. Ataları onlara doğum şəhadətnaməsi almağa getmişdi. O, idarədə olanda düşmən təyyarələri hücuma keçdi, hamı kimi o da bir sığınacaq tapıb sığındı.

Bombardmanın tüstüsü məhəlləni bürümüşdü. Tələsik evinə qayıtdı. Tövşüyürdü, rəngi qaçmışdı. Qan-tər içində, vahimədən bərəlmiş gözlərlə evinin yaxınlığına çatdı.

Ondan irəli getmək olmurdu.

Evindən heç nə qalmamışdı.

Bir neçə dəqiqədən sonra isə həyat yoldaşının və hər iki övladının şəhid olduğunu öyrəndi.

Asir və Əsilin doğum şəhadətnamələri əlində idi, hələ mürəkkəbləri qurumamışdı.

# 98

İki azyaşlı qızın üzləri arıq və iztirab doludur. Göz yaşları yanaqlarından aşağı süzülür. İki bacıdırlar.

Biri danışmağa başlayır:

- Biz gecələr ac yatırıq. Gecələr üşüyürük. Əgər ata sağ olsaydı, üşüməzdik, odun gətirərdi. Amma o, şəhid olub. O, başqa yerdədir, biz burda. Kaş bizi də özüylə aparaydı!

Ondan balaca qız yalnız baxır. Köynəyinin qolu ilə gözlərini silir. Danışmaq istəyir, amma bacarmır.

- Əgər ata, ya da anamız olsaydı, bizimçün nəsə edərdilər.

Bir qədər sonra ümid işığı yaranır: xəstəxananın bir tərəfində uşaqlar bir neçə vərəq yandırıblar. İstidən pay alsınlar deyə ikisi də qaçır.

# 99

Uzun illər öncə əlil olmuş Hizbullah üzvüdür.

Xəbərləri eşidəndə çox üzülür, gözlərinin yağışı yağmağa başlayır: Əziz seyid, mücahid seyid, müqavimətin seyidi rejimin cinayəti ilə şəhid olmuşdur!

Onu çox qədimdən tanıyırdı; Fələstin azadlığının bayraqdarı, böyük, istedadlı, yorulmaz və qüdrətli komandir və rəhbərin işarəsini gözləyən bir fədayi kimi.

Zərbə olduqca ağırdır. Özünə borc bilib qələmi götürür və seyid Rəhbərə məktub yazır:

"Zalımları məhv edən Allahın adı ilə.

Ağam və mövlam, imamım və rəhbərim!

Biz Allahdanıq və Ona doğru qayıdacağıq!

Allah bu böyük müsibətlə bağlı sizə çoxlu əcr versin! Bilirəm ki, qədim döyüş yoldaşlarınızın ayrılığı qəlbinizi incidir. Bilirəm ki, o, sizi, siz də onu çox sevirdiniz.

Seyidin şəhadəti sizə ağırdır. Bu, böyük itkidir. Amma dua edirik ki, Allah sizin kölgənizi davamlı etsin.

Bizim səmavi seyidimiz dəfələrlə deyirdi ki, Hizbullah "gözəl ağac"dır və Allahın izni ilə qalasıdır. O, doğru deyirdi.

Başqa bir sərdar bayrağı götürüb onun yolunu davam etdirəcək. Bu, Allahın vədidir ki:

"Biz hər hansı bir ayəni ləğv edir və ya unutdururuqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk".[1]

Bir az fikrə gedir. Məktubun üstünə bir damla göz yaşı düşür. Məktubu yenidən yazmaq istəyir, amma fikrindən dönür. Kaş bu sənədi öz qanı ilə möhürləyəydi!

Davam edir:

"Bu gün eşitdim ki, Fələstinin azadlığına kömək etməyin qəti hökm və şəriət baxımından vacib olduğunu buyurmusunuz.

Allaha şükür, çoxlu əsgər və komandirləriniz var: Livan, Yəmən, İran, Fələstin, İraq və s. Amma mən də deyirəm: Qocalsam da, əllərim əssə də, ardıcıl öskürəkdən

---

[1] Bəqərə, 106

sinəm yara olsa da, ayaqlarımda çox da güc olmasa da, sizə səngər və zireh ola, əlimdə bayraq tuta, mina üstünə çıxa, gözətçilik edə bilərəm. Məni qəbul edərlərmi?

Sizin işarəniz yetər!”

# 100

İsrail tankları üçün hazırlanmış pusqu səngərində oturub. Arabir Quran oxuyur, zikr deyir, fikirləşir və həmişə gözləyir.

Yer titrəyir. Yəqin ki, yenə Zahiyəni vurublar; birtonluq bombalarla uşaq və qadınlara hücum ediblər... Fikrə gedir.

Qəzzə qırx mindən çox şəhid verib, onminlərlə yaralı var. Qəzzə yerlə bir edilib. Həniyyənin şəhadəti, indi də Livana hücum, çoxlu komandirin şəhadəti, uşaq və qadınların diri-diri yanması, ev və binaların dağılması və seyidin şəhadəti... Seyidi və təbəssümlərini, seyidi və iqtidarını, seyidi və onun Heydər zülfüqarını xatırlayır.

Uzaq və yaxın illərə gedir.

Tarix dərsi keçəndə tarixin cinayətkarları kimi Atilla, Çingiz və Hitlerdən danışdığını yadına saldı. Düşündü ki, bu, onlara rəhmət oxutdurur.

Şagirdləri yadına düşür: Məhəmməd toza döndü, Həsən yandı, Abdullah tapılmadı, İsmayıl iki qolunu və bir ayağını itirdi, Qadir bir neçə dəqiqə ərzində tək-tənha qaldı.

Düzdür ki, Qəzzə və Livan qəhrəmanlığı ilə tarix yazılıb; düzdür ki, əslində düşmən məğlub olmaqdadır, amma hər halda çətindir.

Darıxır. Səngərdəki həmdəmi olan balaca Quranı cibindən çıxarıb açır:

“Qövmü təqib etməkdə zəiflik göstərməyin! Əgər siz əziyyət çəkirsinizsə, onlar da sizin kimi əziyyət çəkirlər. Halbuki siz onların ummadıqlarını Allahdan umursunuz. Allah biləndir, hikmət sahibidir!”[1]

Gülümsəyir.

- Allah bizimlədir! Allah cəbhədə bizimlədir!

Bu gecə Hizbullah Qolani briqadasının düşərgəsini məhv edib. Tel-aviv də Hizbullahın raketlərindən titrəyir.

Gözü divara sataşır. Əbu Əmmarın xəttidir:

“Sevdiyiniz başqa bir şey: Allahdan kömək və yaxın qələbə!”

Necə qazanclı və bərəkətli ticarətdir! Bütünlüklə zəfər, qələbə, nemət və rəhmət!

[1] Nisa, 104